

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

30 yanvar 2026-cı il, cümə
№ 018 (7085)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



## Şərq ilə Qərbi birləşdirən körpü

### Azərbaycan Xəzəryanı regionun lokomotivi rolunda

Bax səh. 2

## Azərbaycanla Çin arasında strateji tərəfdaşlıq güclənir

Bax səh. 3

## Qeyri-neft sənayesinə töhfə

Bax səh. 2

## Xarici dövlət borcumuz 4,8 milyard dollara bərabərdir

Bax səh. 3

## Bakı buxtası təmizlənəcək

Bax səh. 4

## "Qəzza üçün potensial dönüş nöqtəsi"

Bax səh. 6

## Pensiyalar nə qədər artacaq?

Məlum olduğu kimi, 2026-cı ilin yanvar ayı üzrə pensiyaların maliyyələşdirilməsi ölkə üzrə yekunlaşıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondunun məlumatına görə, yanvarın 13-də Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu və Naxçıvan Muxtar Respublikası üzrə yanvar ayının pensiyaları, yanvarın 22-də digər bölgələrdə yaşayan pensiyaçıların və güzəştli şərtlərlə pensiya təyin edilmiş şəxslərin yanvar ayı üzrə pensiyaları, yanvarın 27-də isə yanvar ayının müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları ödənilib. Bütün növ pensiya və təqaüdlərin ödənişləri tam başa çatdırılıb. Ancaq yanvar ayında pensiyalar əvvəlki həcmdə, yəni artımlar olmadan ödənilib. Pensiyaçıları maraqlandıran sual isə artımla bağlıdır. Onlar artımların nə vaxt və hansı həcmdə olacağı barədə qərarı gözləyirlər.

"Əmək pensiyaları" haqqında qanuna əsasən, əmək pensiyalarının indeksləşdirilərək artırılması hər il yanvar ayına şamil olunsa da, proses növbəti ayda, yəni fevralda təmin edilir. Bunun səbəbi indeksasiya ilə bağlı yekun hüquqi məsələnin hələ tam yekunlaşmamasıdır. Belə ki, mövcud qanunvericiliyə əsasən, pensiyalar hər il yanvar ayında əvvəlki ildəki orta aylıq əmək haqqında qeydə alınan artım faizinə uyğun olaraq indeksasiya olunaraq artırılır. Hələlik bu rəqəm məlum deyil, 2025-ci ilin 11 ayının yekunları açıqlanıb və həmin müddətdə ölkə üzrə orta aylıq əmək haqqı 9,3 faiz artıb. İllik yekun rəqəm isə yaxın bir neçə gündə elan ediləcək. Həmin göstəricinin təxminən 9-10 faiz arasında olacağı gözlənilir. Bu isə o deməkdir ki, pensiyaların indeksasiyası həmin rəqəm üzrə artırılacaq. Məsələn, 2025-ci ilin dekabr ayında pensiyası 450 manat olan şəxsin indeksasiya nəticəsində...

Bax səh. 4



## Sabiq dövlət müşaviri Ramiz Mehdiyevi ifşa edir

Bax səh. 5



## Aİ ilə Hindistan arasındakı müqaviləyə "qırmızı işıq"

Bax səh. 7



## Üçlü görüş problemi həll edəcəkmi?

Bax səh. 7

# Qeyri-neft sənayesinə töhfə







## Yeni istifadəyə verilən müəssisələr Sumqayıt Sənaye Parkının istehsal və ixrac potensialını artıracaq

Məlum olduğu kimi Prezident İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton-qutu taraları və "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodlarının açılışlarını edib, "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub. Hər 3 müəssisə Sumqayıt Sənaye Parkının rezidentlərinə məxsus qeyri-neft sənayesi zəncirinə aid yeni istehsal sütunları olmaqla, Azərbaycan sənayesinin ümumi inkişafında töhfəverici rol oynaya biləcək gücə malikdir.

İstifadəyə verilən zavodlar ölkə sənayesinin yeni qollarından biri olmaqla, milli sənaye istehsalına dəyər qatacaq müəssisələrdən biri hesab edilə bilər.

Qeyri-neft sənayesində və milli ixracımızda özünəməxsus yeri olan Sumqayıt Sənaye Parkının milli istehsal və ixrac potensialını daha da artıracaq.

**Cənubi Qafqazın ən böyük sənaye parkı**

Yeni müəssisələrin istifadəyə verilməsi nəhəng sənaye şəhərciyi olan Sumqayıt Kimya Sənaye Parkının yeni investor və rezidentləri öz ailəsində birləşdirməklə sənaye arxitekturasını daha da möhkəmləndirmiş olur. Cənubi Qafqazda ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkı böyük bir ərazidə yerləşməklə neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. 2011-ci ildə ilk sənaye parkı olan Sumqayıt Kimya Parkının təsis edilməsilə ölkə sənayesində texnoloji inqilab baş verib, ardınca sənaye məhəllərinin istehsal və emal bölmələrinin yaradılması, yeni rezidentlərin cəlb edilməsi geniş vüsət alıb.

Burada ümumi investisiyalarının həcmi təqribən 7 milyard manatdan artıq olan 40-dan artıq sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Sənaye Parkında təxminən 15 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da təqribən 5 milyard manatlıq hissəsi ixracın payına düşür. 7 mindən çox insanın daimi işlə təmin olunduğu sənaye zonasında istehsal olunan məhsullar 70-dən çox ölkəyə ixrac edilir.

Ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafının təmin edilməsidir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət və dövlətin təşviqedici qərarları sayəsində rəqabətqabiliyyətli məhsul istehsalı, qabaqcıl texnologiyaların daha geniş tətbiq olunduğu güclü sənaye zonaları bloku formalaşıb. Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması və digər sənaye zonalarında yeni rezidentlərin qeydə alınması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Həmçinin, cari ilin ortalarında fəaliyyətə başlayan "Laçın Aqro-Sənaye Parkı"ndakı "PIR-SHAGHI" və "LATIFA" fabrikləri ölkəmizin sənaye zəncirinə qoşulmaqla, ölkə iqtisadiyyatına reinteqrasiyanı təmin etməkdədir.

**Naxçıvanda sənayeləşmə mərhələsi başlayır**

Hazırda Naxçıvan Muxtar Respublikasında yaradılan Naxçıvan Sənaye Parkı ölkəmizin iqtisadi imkanlarının daha da artması, qeyri-neft sektorunun davamlı inkişafı və qeyri-neft resurslarının tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Sənaye Parkının yaradılması ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasına əlavə güc qatacaq. Bu Sənaye Parkı Azərbaycanın sənaye ixracına qoşulmaqla qeyri-neft sənayesinin inkişafına da mühüm töhfələr verəcək.

Eləcə də "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) törəmə şirkəti olan "AzerBlast" MMC tərəfindən Gəncə şəhərində ölkəmizdə ilk dəfə olaraq sənaye əhəmiyyətli partlayıcı maddələr istehsal edəcək zavodun inşası davam etdirilməkdədir. Bir müddət əvvəl dövlət başçısının imzaladığı müvafiq fərmana əsasən, ölkəmizdə Qərb Sənaye Parkının yaradılması da nəzərdə tutulub. Gəncə şəhəri və Şəmkir rayonunun ərazisində yerləşəcək Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi kimi müəyyənləşib. Qərb Sənaye Parkı xarici investorlar üçün maraq kəsb etməklə ölkəmizdə tətbiq olunan vergi güzəştlərindən istifadə etmələrinə imkan verəcək, istehsal imkanlarını genişləndirəcək. Bu isə sənaye istehsalı və ixracını genişlədirəcək.

**Sənaye sektorunun ÜDM-də payı artır**

Ümumilikdə, respublikamızda fəaliyyət göstərən 9 sənaye parkının potensialının artması qeyri-neft sənayesinin inkişafını təmin etməklə, bu sektorun əsas əlavə dəyəri formalaşdıran fiskal sahə olduğunu göstərir. Bu ardıcıl xarakter daşıyan sənayeləşmə strategiyasının nəticəsidir ki, sənayenin ÜDM-də və qeyri-neft ixracında payı yüksəlir.

Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 104 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə 1,74 milyard manata yaxın investisiyanın yatırılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 6,1 milyard manatlıq hissəsi ixrac olunub. Hazırda istehsal olunan məhsullar dünyanın 70 ölkəsinə ixrac edilir.

2025-ci ildə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 63,1 milyard manatlıq sənaye məhsulu istehsal edilib və qeyri-neft sənayesində 5,5 faiz artım qeydə alınıb.

Beləliklə, yeni sənaye müəssisəsinin yaradılması ölkəmizdə sənaye kompleksləri şəbəkəsinin genişlənməsi, sənaye zəncirinin möhkəmlənməsi və güclü ixrac yönümlü sənaye potensialının yaradılmasına da öz töhfəsini verəcək. Növbəti illər üzrə artan tələbata uyğun istehsal həcminin də artırılması, sonrakı mərhələdə isə məhsulların xarici bazarlara çıxarılması ilə ölkəmizin qeyri-neft ixracatına töhfə verilməsi hədəf olaraq müəyyənləşdirilib. Nəticədə, Azərbaycanın sənaye məhsulları ixrac edən ölkə kimi mövqeyinin daha da möhkəmlənməsinə səbəb olacaq.

***E. CƏFƏRLİ***

# Şərq ilə Qərbi birləşdirən körpü



## Azərbaycan Xəzəryanı regionun lokomotivi rolunda



Bakı yeni iqtisadi-siyasi nizamın formalaşdığı bir dövrdə təkcə regional aktor kimi deyil, Avrasiya məkanında prosesləri istiqamətləndirən mühüm mərkəz kimi çıxış edir. Azərbaycan öz yerləşdiyi coğrafiyanın potensialını qlobal müstəviyə daşımağı bacarıb. Məhz bu rasional və praqmatik yanaşma Xəzəryanı regionu yeni inkişaf trayektoriyasına çıxarıb.

Müasir beynəlxalq münasibətlər sistemində baş verən transformasiyalar isə qlobal miqyasda alternativ marşrutların və fərqli əməkdaşlıq formatlarının ön plana çıxmasını şərtləndirir. Ənənəvi siyasi və iqtisadi nizamın aşınması fonunda Avrasiya coğrafiyası dünya siyasətinin əsas diqqət mərkəzinə çevrilib. Bu geniş məkanda yerləşən Xəzəryanı region enerji resursları ilə yanaşı, həm də nəqliyyat, logistika, təhlükəsizlik və siyasi uzlaşma baxımından strateji əhəmiyyət qazanıb. Məhz bu kontekstdə Azərbaycanın rolu xüsusi çəkisi ilə seçilir.

Postmüharibə dövründə region üçün tamamilə yeni reallıqlar formalaşıb. Azərbaycan hərbi qələbəni geosiyasi revanşizmə deyil, uzunmüddətli sülhə və əməkdaşlığa çevirməyi bacaran nadir aktorlardandır. Bakı tərəfindən yürüdülən siyasət Cənubi Qafqazda davamlı stabillik üçün əsaslı zəmin formalaşdırıb. Bu yanaşma eyni zamanda Xəzəryanı regionun qapalı geosiyasi məkandan açıq iqtisadi platformaya transformasiyasını sürətləndirib.

Qlobal yeni nizamın əsas şərtlərindən biri logistika və nəqliyyat xətlərinin təhlükəsiz və dayanıqlı şəkildə fəaliyyət göstərməsidir. Bu baxımdan Orta Dəhliz artıq alternativ yox, əsas qlobal marşrutlardan birinə çevrilməkdədir. Çin - Mərkəzi Asiya - Xəzər - Cənubi Qafqaz - Avropa xətti üzərində yerləşən Azərbaycan bu dəhlizin əsas dayaqlarından biri kimi çıxış edir. Bakı Xəzəryanı bölgəni Şərq və Qərb arasında uzlaşma məkanına çevirərək Mərkəzi Asiyanın gələcək inkişafı üçün real perspektivlər formalaşdırır. Beləliklə, "yol" və "tranzit" predmeti artıq Orta Dəhliz üzərində cəmləşir.

**Orta Dəhlizin strateji məzmunu**

Azərbaycan son illərdə Mərkəzi Asiya ölkələri ilə əlaqələrini sistemli və strateji əsaslarla inkişaf etdirir. Bu münasibətlər təkcə diplomatik səviyyə ilə məhdudlaşmır, eyni zamanda iqtisadi, nəqliyyat, enerji və humanitar sahələri də əhatə edir. C5 formatı çərçivəsində fəal mövqe tutan Bakı yeni dövrdə Şərq-Qərb maraqlarının uzlaşdırılmasında aparıcı aktora çevrilib. Azərbaycan region ölkələri üçün etibarlı tranzit tərəfdaş kimi qəbul olunur.

Orta Dəhlizin inkişafı bu əməkdaşlığın əsas dayağıdır. Qlobal ticarətdə alternativ marşrutlara artan tələbat Azərbaycanın strateji əhəmiyyətini daha da artırır. Zəngəzur dəhlizi (TRİPP) perspektivi isə Orta Dəhlizin funksionallığını genişləndirərək Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına çıxışını sürətləndirir. Bu marşrutlar vasitəsilə daşınan yüklər təkcə iqtisadi fayda yaratmır, eyni zamanda regionlararası siyasi dialoqu da gücləndirir.

Azərbaycanın əsas üstünlüyü ondan ibarətdir ki, Bakı tranziti rəqabət predmetinə çevirmir. Əksinə, iqtisadi sabitləşdirici rol oynayaraq qitələrarası rəqabətin əməkdaşlıq müstəvisinə keçidini təşviq edir. Bu yanaşma Mərkəzi Asiya üçün uzunmüddətli inkişaf modeli formalaşdırır və regionu qlobal iqtisadi sistemin ayrılmaz hissəsinə çevirir.

**Bölgə üçün yeni imkanlar...**

Xəzəryanı regionun gələcək inkişafı baxımından Türk Dövlətləri Təşkilatı mühüm strateji platforma kimi çıxış edir. Azərbaycan və Türkiyənin təşəbbüsü ilə güclənən, yeni nizamda mühüm birlik formatında təqdim olunan təşkilat siyasi dialoqu institusional çərçivəyə salmaqla yanaşı, iqtisadi inteqrasiyanı da dərinləşdirir. TDT çərçivəsində nəqliyyat, enerji və ticarət sahələrində vahid yanaşmalar formalaşır ki, bu da Xəzər hövzəsinin qlobal iqtisadi proseslərə daha fəal inteqrasiyasına imkan yaradır.

Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyi region üçün güclü siyasi dayaq rolunu oynayır. Eyni zamanda Bakının Mərkəzi Asiya Məşvərət Məclisinin tamhüquqlu üzvü olması onu Şərq-Qərb inteqrasiyasının mərkəzinə çıxarır. Bu platformalar regionda qarşılıqlı etimadı möhkəmləndirir və uzunmüddətli inkişaf üçün sabit institusional mühit yaradır.

Xəzəryanı region artıq yalnız enerji məkanı deyil, eyni zamanda siyasi dialoq və iqtisadi sinerji mərkəzinə çevrilir. Bu prosesdə Azərbaycanın oynadığı rol həlledicidir. Bakı regionu parçalanma deyil, uzlaşma məkanı kimi təqdim edərək yeni inkişaf fəlsəfəsi formalaşdırır.

**Azərbaycanın sülh, sabitlik və inkişaf modeli**

Qərb dövlətləri və beynəlxalq institutlar Azərbaycanın Xəzəryanı region və Mərkəzi Asiya istiqamətində apardığı siyasəti getdikcə daha yüksək qiymətləndirir. Azərbaycanın Sülh Şurasının təsisçi üzvü kimi çıxış etməsi də məhz Bakının regional siyasətinin beynəlxalq etimad qazandığını göstərir. Azərbaycan təhlükəsizlik və inkişaf məsələlərinə ideoloji yanaşmalardan uzaq, praqmatik və nəticəyönümlü mövqedən yanaşır. Təsadüfi deyil ki, Xəzər Siyasət Mərkəzinin İdarə Heyətinin üzvü Riçard Hoqland Azərbaycanı regionda çox mühüm ölkə adlandırıb. O, ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılmış və Azərbaycanın da təsisçi üzvlərdən biri olduğu Sülh Şurasına böyük töhfə verə biləcəyini bildirib. "Azərbaycan Xəzər bölgəsindəki kimi burada da möhkəm regional rol oynaya bilər. Bu, olduqca vacibdir. Azərbaycan C5-in üzvü seçildi və indi o, C6-dır. Ümid edirəm ki, Xəzər bölgəsində aparıcı ölkə kimi Azərbaycan öz vacib rolunu oynayacaq",- deyə ekspert əlavə edib.

Qeyd olunduğu kimi, Bakının siyasətinin əsasını sülh, sabitlik və əməkdaşlıq təşkil edir. Azərbaycan regionda gərginlik yaradan deyil, gərginliyi azaldan aktor kimi qəbul olunur. Qərb üçün də bu model cəlbedicidir, çünki dayanıqlı nəqliyyat xətləri, enerji təhlükəsizliyi və siyasi stabillik qlobal maraqlara tam uyğundur.

Bu kontekstdə Azərbaycanın rolu yalnız regional çərçivə ilə məhdudlaşmır. Bakı Avrasiyada yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturasının formalaşmasına real töhfə verir. Bu isə Mərkəzi Asiyanın gələcək inkişafında Azərbaycanın rolunu daha da möhkəmləndirir.

**Xəzəryanı region dayanıqlı platformaya çevirilir**

Bəli, Azərbaycan Xəzəryanı regionun inkişafında bu gün strateji lokomotiv rolunu oynayır və Mərkəzi Asiyanın qlobal sistemə inteqrasiyası üçün real perspektivlər yaradır. Orta Dəhliz, Zəngəzur dəhlizi (TRİPP) və Türk Dövlətləri Təşkilatı çərçivəsində qurulan əməkdaşlıq mexanizmləri regionu yeni inkişaf mərhələsinə çıxarır. Bakı bu proseslərdə təkcə iştirakçı deyil, əsas istiqamətverici aktor kimi çıxış edir.

Azərbaycanın seçdiyi sülh və əməkdaşlıq modeli Avrasiya məkanında sabitliyin təmin olunması üçün nümunəvi yanaşma kimi dəyərləndirilir. Bu model Mərkəzi Asiya üçün yeni iqtisadi imkanlar açmaqla yanaşı, Xəzəryanı regionu qlobal geosiyasi risklərdən qoruyan dayanıqlı platformaya çevirir. Azərbaycanın ardıcıl və balanslı siyasəti göstərir ki, yeni dünya nizamında güc yalnız hərbi potensialla deyil, uzlaşdırıcı diplomatiya və iqtisadi inteqrasiya ilə ölçülür.

***Pərviz SADAYOĞLU***

# Azərbaycanla Çin arasında strateji tərəfdaşlıq güclənir



Azərbaycanla Çin Xalq Respublikası arasında əlaqələr uğurla inkişaf edir. Çin və Azərbaycan yaxşı dost və etibarlı tərəfdaşlar kimi qarşılıqlı münasibətləri davamlı olaraq genişləndirir. Bu da ölkələrimiz arasında yüksək dinamikaya malik siyasi dialoq mühitinin formalaşması ilə bağlıdır. Azərbaycanla Çin arasında diplomatik münasibətlərin qurulduğu 34 il ərzində əlaqələrimiz tarixi bağlara əsaslanmaqla sabit şəkildə inkişaf edib, müxtəlif sahələrdə səmərəli əməkdaşlıq hər iki tərəfə fayda gətirib.

## Ceyhun Bayramovun Çinə rəsmi səfəri...

Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov yanvarın 28-də Çində rəsmi səfərdə olub. Səfər zamanı Ceyhun Bayramov Çin Xalq Respublikasının xarici işlər naziri Van İ ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan ilə Çin arasında ikitərəfli və çoxtərəfli münasibətlərin cari vəziyyəti ilə inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq məsələlər müzakirə olunub. Nazirlər siyasi dialoqun yüksək səviyyədə olduğunu, 2025-ci ildə iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulmasının əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə töhfə verdiyini məmnunluqla qeyd ediblər. Azərbaycan Prezidentinin ötən ilin aprel ayında Çinə dövlət səfəri zamanı imzalanmış çoxsaylı müqavilələrin bir sıra istiqamətlərdə əməkdaşlığa əlavə təkan verdiyi vurğulanıb.

Tərəflər qarşılıqlı etimad və hörmətə əsaslanan əməkdaşlığın ticarət-iqtisadi, nəqliyyat-logistika, enerji, bərpaolunan enerji, sənaye, rəqəmsal transformasiya, kənd təsərrüfatı, humanitar və təhsil sahələrində daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar. Orta Dəhliz, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə görülən işlərdə birgə əməkdaşlıq təqdir olunub. Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsinin önəmi qeyd olunub, regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb. BMT, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), Qoşulmama Hərəkatı və digər çoxtərəfli formatlar çərçivəsində əməkdaşlıq əlaqələri nəzərdən keçirilib. Tərəflər, həmçinin xalqlararası əlaqələrin möhkəmləndirilməsi, təhsil, mədəniyyət, turizm və gənclər arasında mübadilələrin genişləndirilməsinin ikitərəfli münasibətlərin dayanıqlı inkişafında mühüm rol oynadığını qeyd ediblər.

Görüşdə daha sonra qlobal və regional təhlükəsizlik məsələləri, Mərkəzi Asiya formatı çərçivəsində əməkdaşlıq planları nəzərdən keçirilib. Görüşdə, həmçinin postmünaqişə dövründə bərpa-quruculuq işləri və mina təhdidi barədə qarşı tərəfə məlumat verilib, minasızlaşdırma fəaliyyətində ANAMA-ya dəstəyə görə Çin tərəfinə təşəkkür ifadə olunub. Bundan başqa, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Əlaqələrin güclənməsində liderlərin dostluğu önəmli rol oynayır

Qeyd edək ki, hazırda dünyada iqtisadiyyatın böyüklüyünə görə Çin ikinci sırada qərarlaşıb. Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi də bu ölkənin iqtisadi gücünü artırır. Belə ki, Çin Xalq Respublikası Avrasiya ölkələri arasında infrastrukturun yaradılması və qarşılıqlı əlaqələrin qurulmasına yönələn "Bir kəmər, bir yol" adlı iqtisadi inkişaf strategiyası elan edib. Strategiya əsas inkişaf istiqamətini nəzərdə tutur. Bunlardan biri "İpək Yolu İqtisadi Kəməri", ikincisi isə "Dəniz İpək Yolu"dur. Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir.

Azərbaycan daim Çinlə əlaqələrə böyük önəm verir. Ötən dövr ərzində bu əlaqələr yüksələn xətlə inkişaf edib. Eyni zamanda, Azərbaycan "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri olmaqla yanaşı, özünün iqtisadi potensialı, əlverişli coğrafi mövqeyi, eləcə də nəqliyyat-logistika imkanları ilə onun icrasına önəmli töhfələr verir. İkitərəfli əlaqələrin hazırkı yüksək səviyyəyə çatmasında liderlərin rolunu xüsusi vurğulamaq lazımdır. Hazırda Azərbaycanın və Çinin liderləri arasında sıx dostluq münasibətləri var. Təsadüfi deyil ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Prezidenti İlham Əliyevi Çinin "böyük dostu" adlandırıb.

Prezident İlham Əliyev hələ 2015-ci ilin dekabrında Çində dövlət səfərində olarkən, iki ölkə arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Dövlətimizin başçısı 2019-cu ildə 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci ilin aprel ayında isə dost ölkədə dövlət səfərində olub. Bu, dövlətimizin başçısının Çinə üçüncü səfəridir. Eyni zamanda, Prezident İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpinin müxtəlif beynəlxalq platformalarda vaxtaşırı görüşləri də baş tutur. Onlar həm ölkələrimizin gündəlikləri, həm də yaranan yeni qlobal çağırışlar ətrafında aktual müzakirələr aparırlar. Belə müzakirələr hər iki ölkənin mənafeyinə uyğun qərarların verilməsinə əsas olur. Xatırladaq ki, 2024-cü il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Dövlətimizin başçısının Çinə sonuncu - dövlət səfəri çərçivəsində isə Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələrinin Qurulması Haqqında Birgə Bəyanat və bir çox sahəni əhatə edən 20-dən artıq sənəd imzalanıb.

Qeyd edək ki, Birgə Bəyanat ikitərəfli əlaqələrimizi daha da yüksək pilləyə qaldırıb, dövlətlərarası münasibətlərimizin strateji mahiyyətini gücləndirib. Sənədin mətninə nəzər yetirdikdə, burada ikitərəfli əlaqələrin geniş gündəliyini görmək mümkündür. Ölkələrimiz milli maraqlara aid məsələlərdə həmrəylik və dostluq nümayiş etdirirlər. Hər iki dövlət bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin 30 il davam etmiş keçmiş Qarabağ münaqişəsi dövründə hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib. Öz növbəsində, ölkəmiz də "Vahid Çin" siyasətini dəstəkləyir.





## Çin Orta Dəhlizə böyük önəm verir

Onu da qeyd edək ki, iki ölkə arasında iqtisadi əlaqələr də davamlı inkişaf edir. Prezident İlham Əliyevin ötən ilin aprel ayında Çinə dövlət səfəri zamanı imzalanmış sənədlər iqtisadi-ticari, enerji, o cümlədən yaşıl enerji, nəqliyyat, elm və təhsil, mədəniyyət, media və digər sahələri əhatə edir. Sözügedən sənədlər və ümumilikdə tərəflərin münasibətləri daha da irəli aparmaq istiqamətindəki fəaliyyəti sayəsində iqtisadi-ticari əməkdaşlıq genişlənib. İki ölkə arasında əmtəə dövriyyəsi rekord həddə çataraq, 4 milyard dolları ötüb. Çin şirkətləri Azərbaycana, xüsusən də yaşıl enerji sahəsində fəal şəkildə investisiya qoymağa başlayıb.

Azərbaycan əlverişli coğrafi mövqeyi, iqtisadi və logistika imkanları ilə regionda beynəlxalq tranzit yükdaşımaları üçün əvəzolunmaz ölkədir. Azərbaycan hələ illər öncədən beynəlxalq nəqliyyat marşrutlarının, o cümlədən Orta Dəhlizin tikintisinə ciddi sərmayələr yatırıb. Bura Ələt Ticarət Limanının inşası, Xəzər dənizində mülki donanmanın gücləndirilməsi, ölkə ərazisində və sərhədlərimizdən kənarda dəmir və avtomobil yollarının yenilənməsi və inkişafı, beynəlxalq hava limanlarının inşası daxildir. Azərbaycanın bağlantı imkanlarının davamlı olaraq yaxşılaşdırılması ölkənin uzunmüddətli iqtisadi strategiyasının əsas komponentləridir. Son illər Orta Dəhliz üzrə daşınan yüklərin, o cümlədən Çin yüklərinin həcmi əhəmiyyətli dərəcədə artıb.

Bu da əbəs deyil, çünki Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar yaranan vəziyyət ənənəvi şimal xəttinin sabit və etibarlı fəaliyyətini pozub. Bu səbəbdən Azərbaycandan keçən Orta Dəhlizin əhəmiyyəti çoxalıb. Hazırda Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizi üzrə qatarların hərəkəti daha da intensivləşib, daşınma müddəti isə 23 gündən təxminən 11 günədək qısalıb. Təkcə Çinin qərbindənki ən iri dəmir yolu terminalı olan Siandan deyil, paytaxt Pekin də daxil olmaqla Çinin bir neçə şəhərindən Orta Dəhliz vasitəsilə yük qatarı marşrutu fəaliyyət göstərir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozlarına əsasən, 2030-cu ilə qədər Orta Dəhliz üzrə daşımaların həcmi 11 milyon tona, 2040-cı ilə qədər isə konteyner tutumu 865 minə yüksələcək. Bu, Azərbaycanın logistik əhəmiyyətini artırmaqla yanaşı, həm də qlobal ticarət üçün uzunmüddətli, davamlı bir yoldur.

Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Zəngəzur dəhlizi (TRİPP) regional əməkdaşlıq üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizi layihəsini həyata keçirməklə Orta Dəhlizi daha da şaxələndirməyi hədəfləyir. Çin və Orta Asiya ölkələrindən gələn yüklərin gələcəkdə həm də Zəngəzur dəhlizi boyunca hərəkəti mümkün olacaq. Bu da öz növbəsində həm daşınan yüklərin həcmini əhəmiyyətli dərəcədə artıracaq.

***Nardar BAYRAMLI***

# Ən az borca malik ölkə

## Xarici dövlət borcumuz 4,8 milyard dollara bərabərdir

2026-cı il yanvarın 1-i tarixinə Azərbaycanın dövlət borcunun (xarici və daxili) ümumi məbləği 25,9 milyard manat təşkil etməklə ümumi daxili məhsulun (ÜDM) 20,1 faizinə bərabər olub. Bu müddətdə beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş istiqrazlar, habelə əməkdaşlıq etdiyimiz müxtəlif beynəlxalq maliyyə-kredit qurumları və xarici banklarla imzalanmış kredit sazişləri çərçivəsində faktiki istifadə olunmuş hissə üzrə yerinə yetirilmiş öhdəliklər nəzərə alınmaqla xarici dövlət borcu 4,8 milyard dollar və ya ÜDM-in 6,3 faizini təşkil edib. Daxili dövlət borcunun səviyyəsi isə 17,8 milyard manat və ya ÜDM-in 13,8 faizi səviyyəsinə bərabərdir.

Borcun azaldılması istiqamətində hökumətin yürütdüyü siyasət öz müsbət nəticəsini göstərməkdədir və son bir ildə borc öhdəlikləri üzrə ödənişlərin tam icrasına nail olunub. Belə ki, 2025-ci ilin dövlət büdcəsindən daxili borc üzrə 757 milyon manat, xarici borcu üzrə isə 1,4 milyard manata yaxın vəsait sərf olunub. Ümumilikdə borc üzrə ödənişlərin məbləği təqribən 2,1 milyard manat təşkil edib. Nəticədə, öhdəliklərin icrasından sonra dövlət borcuna xidmət xərclərində 300 milyon manat məbləğində qənaət formalaşdırılıb.

**Borc portfelinin 85 faizi dollar valyutasındadır**

Rəqəmlərdən də göründüyü kimi, Azərbaycanın xarici dövlət borcu davamlı olaraq azalmağa doğru fokuslanmaqla ÜDM-in ən aşağı həddinə endirilib. Son 8 ildə borcun 2 dəfəyə yaxın azaldılması dünya dövlətləri içərisində rast gəlinən nadir hallardan biridir. Müqayisə üçün xatırladaq ki, 2018-ci ildə xarici dövlət borcu 9 milyard dollar təşkil edirdi. Göründüyü kimi, müəyyən edilmiş strateji hədəflər çərçivəsində borcun həm nominal həcmi, həm də ÜDM-də nisbəti aşağı düşüb.

Azərbaycanın xarici borcunun faizlər üzrə strukturuna diqqət etdikdə, borc siyasətinin təmkinli və çevik idarəedilən kursa əsaslandığını görmək mümkündür. Belə ki, dəyişkən faiz dərəcəsi üzrə öhdəliklər xarici borc portfelinin 49,3 faizini, sabit dərəcə üzrə öhədliklər isə 50,7 faizini təşkil edir. Xarici dövlət borcunun 49,9 faizi 5 ilə qədər olan müddətdə, 44,1 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, qalan 6 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.



Xarici dövlət borcunun valyuta tərkibi isə aşağıdakı kimi təsnifləşdirilə bilər:

* Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları üzrə 3,4 faiz;
* ABŞ dolları ilə 85,1 faiz;
* Avro ilə 6,5 faiz;
* Yapon yeni ilə 3,3 faiz;
* Digər xarici valyutalar üzrə 1,7 faiz.

Azərbaycan hazırda xarici borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələr sırasında yer alır. Ölkəmizdə xarici borcun ÜDM-də payı 6,3 faiz olmaqla ümumdünya göstəricilərindən qat-qat aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.

Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2025-ci ilin birinci yarısında 12,5 milyard dollar olmaqla ÜDM-in 54 faizini təşkil edir. Borcun adambaşına düşən nisbətinə görə də Azərbaycan ən qənaətbəxş vəziyyətə malikdir. Məsələn, Ermənistanda adambaşına düşən borcun həcmi 3,7 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir. Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycana nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43 fazidən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi 495 dollardır. Bütün bu amillər Azərbaycanın öz iqtisadi potensialı sayəsində xarici borcu tam bağlamağa imkan verir.

**Strateji valyuta ehtiyatlarımız xarici borcu 18 dəfə üstələyir**

Cənubi Qafqaz ölkələrində borcun strateji rezervlərin nisbətinə görə də Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi 85 milyard dollar olmaqla borcu 18 dəfə üstələyir.

Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borclarını azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq Böyük Qayıdışın sürətlə icra olunduğu şəraitdə öz iqtisadi məqsədləri üçün səmərəli borclanmaya getməyi də istisna etmir.

**Daxili borc da azalır**

Ötən il ərzində daxili dövlət borcunun da azalması müşahidə edilib. Belə ki, 2025-ci ilin əvvəli ilə müqayisədə borc məbləği təxminən 1,5 milyard manat azalıb ki, bu da faiz nisbəti ilə 8 faiz deməkdir. Daxili borc portfelinin 46,7 faizi dövlət qiymətli kağızlarının, 53,3 faizi isə 2023-cü ilin sonundan etibarən dövlət borcuna aid olan "Aqrarkredit" QSC-nin BOKT dövlət zəmanətli borcunun payına düşür. Borcun strukturumnda dövlət qiymətli kağızlarının 12,9 faizi 1 illik, 57 faizi 2 və 3 illik, 30,1 faizi isə 5 il və daha artıq müddətli olanlardır.

Hazırda dövlət şirkətlərinin Azərbaycanın dövlət zəmanəti ilə təmin edilmiş borcları təxminən 10 milyard manat və ÜDM-in 8,4 faizini təşkil edir. Azərbaycan Respublikası adından verilmiş zəmanətlər əsasən dövlət müəssisələri tərəfindən cəlb edilmiş borclardır. Borc strategiyasına əsasən, zəmanətli borclarda mühüm yer tutun istiqamətlər, o cümlədən "Azərbaycan İnvestisiya Holdinqi" və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi" (AZCON) publik hüquqi şəxslərin idarəetməsinə verilmiş portfel şirkətlərin, o cümlədən dövlət zəmanəti ilə borc cəlb etmiş bir sıra dövlət müəssisələrinin korporativ fəaliyyətinin təmin edilməsi, onların gəlir və xərclərinə nəzarətin gücləndirilməsi və optimallaşdırma tədbirləri sayəsində addımlar atılır ki, bu da borcların geri qaytarılmasında mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

# Bakı buxtası təmizlənəcək



## Paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzində



Bugünlərdə Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetində “Xəzər dənizində müxtəlif təyinatlı qəzalı və yararsız vəziyyətdə olan hidrotexniki qurğuların, o cümlədən qəzalı vəziyyətdə olan və ləğv olunmuş quyuların təkrar ləğvi və izolyasiyası, estakadaların, yanalma körpülərinin, platformaların, həmçinin batmış və yarımbatmış vəziyyətdə olan gəmilərin çıxarılması və digər reabilitasiya işlərinin həyata keçirilməsinə dair 2025-2030-cu illər üçün Kompleks Tədbirlər Planı”nın icrası və Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş iclas keçirilib. İclasda müxtəlif dövlət qurumlarının rəhbərlərinin məruzələri və digər çıxışlar dinlənilib, problemlərə diqqət çəkilərək bir sıra layihələrin icrasının zəruriliyi vurğulanıb.

### Keçmişdən qalan kədərli miras

Abşeron yarımadası, Xəzərin Azərbaycan sektoru sənaye inkişafı və neft-qaz hasilatı üçün əlverişli məkandır. Dünyada neftçıxarma üzrə bir sıra ilklərə məhz burada imza atılıb. Xatırladaq ki, sənaye üsulu ilə hasilatın, dənizdə neftçıxarmanın əsasını məhz bizim neftçilərimiz qoyublar. İkinci Dünya müharibəsi illərində böyük çətinliklərə baxmayaraq, neftçilərimiz qəhrəmanlıq və fədakarlıq göstərərək cəbhəni və sənayeni yanacaqla təmin ediblər. Həmin dövrdə akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini alınmasının yeni texnologiyası yaradılıb. Neftçilərimizin fədakar əməyi sayəsində Azərbaycan tarixində neft hasilatı üzrə rekord göstərici əldə olunub. 1941-ci ildə respublikamızda 23,5 milyon ton “qara qızıl” çıxarılıb. Bu, keçmiş SSRİ-də çıxarılan bütün neftin 71,4 faizini təşkil edirdi. Bütövlükdə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları veriblər. Statistik məlumatda bildirilir ki, müharibə illərində keçmiş ittifaqda hər 5 təyyarədən, tankdan və avtomobildən 4-ü Bakıdan göndərilən yanacaqla işləyib.

Lakin təəssüf doğuran haldır ki, onilliklər ərzində, xüsusilə də keçmiş ittifaq dövründə bəhs olunan coğrafiyanın resurslarının geniş şəkildə istismar edilməsindən bizə kədərli miras qalıb. Belə ki, yarımadanın və dənizin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər görülməyib. Ögey münasibətin nəticəsi olaraq Abşeronda neftlə və sənaye tullantıları ilə çirklənmiş ölü zonalar, həmçinin dənizdə istifadəsiz qalmış metal konstruksiyalardan ibarət qəbiristanlıqlar yaranıb. Baş nazir çıxışında Xəzər dənizinin Azərbaycana məxsus bölməsindəki neft-qaz yataqlarında Sovet İttifaqından miras qalmış müxtəlif təyinatlı hidrotexniki qurğuların, ləğv edilmiş və ya konservasiya olunmuş neft quyularının, estakadaların, yanalma körpülərinin, platformaların köhnəlməsi, korroziyaya uğraması və hidrometeoroloji amillərin təsiri səbəbindən qəzalı vəziyyətə düşməsi nəticəsində yaranmış problemlərin dənizin ekoloji vəziyyətinə neqativ təsir göstərdiyinə diqqət çəkib. Əli Əsədov həmçinin uzun müddət antropogen təsirlərin davam etməsi nəticəsində Bakı buxtasında (Dənizkənarı bulvar) da çirklənmənin dərinləşdiyini və onun ekoloji vəziyyətinin yaxşılaşdırılmasına kəskin zərurət yarandığını bildirib.



### İnteraktiv xəritə sxemi hazırlanacaq

Hər iki məsələ ətrafında müzakirələr aparılaraq aidiyyəti dövlət qurumlarına Xəzər dənizində monitorinqlər aparmaqla interaktiv xəritə-sxemin hazırlanması, iş həcmlərinin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və tədbirlərin dövlət-özəl tərəfdaşlığı prinsipi əsasında həyata keçirilməsi, habelə qəzalı və yararsız vəziyyətdə olan hidrotexniki qurğuların və quyuların demontajı, batmış və yarımbatmış gəmilərin çıxarılması, görülən tədbirlərin dəniz ətraf mühitinin yaxşılaşmasına təsirinin qiymətləndirilməsinin həyata keçirilməsi üzrə müvafiq tapşırıqlar verilib.

Həmçinin Bakı buxtasının (Dənizkənarı bulvarın) təmizlənməsi və ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə dəniz suyunun çəkilməsi ilə sahilə yaxın hissələrdə üzə çıxmış metal konstruksiyaların ərazidən kənarlaşdırılması, hövzəyə çirkab suların axıdılmasının qarşısının alınması, suyun səthində üzən neft ləkələrinin və müxtəlif tullantıların, habelə ətrafda neftlə çirklənmiş torpaqların təmizlənməsi istiqamətində təxirəsalınmaz işləri özündə ehtiva edən Tədbirlər Planının hazırlanması tapşırığı verilib.

### Böyükşor gölünün ekoloji bərpası

Son vaxtlaradək Abşeron yarımadasında ekoloji cəhətdən ən çirklənmiş ərazilərdən biri də Böyükşor gölü hesab olunurdu. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla təsdiqlənən Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramına uyğun olaraq artıq gölün bərpası layihəsinin birinci mərhələsi tamamlanıb.

İlkin mərhələsi “Təmiz Şəhər” ASC tərəfindən həyata keçirilən bərpa layihəsində təmizlənməsi nəzərdə tutulan hissənin təcrid edilməsi məqsədilə 1570 metr uzunluğunda bənd çəkilərək Böyükşor gölü 2 hissəyə ayrılıb. Bu bəndin üzərindən hazırda Ziya Bünyadov prospekti ilə Balaxanı şossesini birləşdirən magistral yol çəkilib. Sovet dövründən etibarən Böyükşor gölünə axıdılan sənaye və məişət tullantı sularının qarşısı böyük həcmdə alınıb. Belə ki, layihənin icrasına başlamazdan əvvəl gölə 76 mənbədən sənaye və məişət tullantı suları axıdılırdı. Gölün dibinin təmizlənmiş ərazilərində neftlə çirklənmənin səviyyəsi 121 min mq/kiloqramdan 86 min mq/kiloqrama enib ki, bu da artıq ekoloji normalar səviyyəsində olması deməkdir. Layihə ərazisinin cənub sahili boyunca kanalizasiya xətti çəkilib və bu hissədə çirklənmə mənbələrinin qarşısı tamamilə alınıb. Neftlə çirklənmiş əsas ərazi - layihə ərazisinin Balaxanı qəsəbəsi tərəfindədir. Qədim Balaxanı neft yataqlarının gölün bu hissəsini çirkləndirən neft tullantılarının qarşısının alınması üçün Balaxanı qəsəbəsi tərəfdən gölün tarixi məcrasının sərhədləri boyunca 1850 metr uzunluğunda bənd inşa olunub. Eyni zamanda, bir əsrdən artıq müddətdə göl dibinə yığılmış çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi işləri görülüb. Layihənin ilk mərhələsində 2,8 milyon kubmetr həcmində çöküntü gölün dibindən çıxarılaraq zərərsizləşdirilib. Birinci mərhələ üzrə tikinti işlərinin başa çatdırıldığı sahə 15 hektardan çox ərazini əhatə edir.

Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planında isə ərazinin paytaxtın yeni cəlbedici mərkəzi kimi inkişaf etdirmək üçün Böyükşor gölünün, eləcə də Binəqədi və Balaxanı yaxınlığındakı sənaye ərazilərinin bərpası üzrə əhəmiyyətli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Baş planda qeyd olunub ki, Böyükşor gölünün böyük şəhər parkı (təqribən 388,8 hektar), yeni yaşayış, işləmək və istirahət etmək üçün özünəməxsus bənzərsiz ərazi kimi formalaşmasını təmin etmək məqsədilə pilləli inkişaf yanaşması tətbiq edilməlidir. Bundan başqa, sənəddə qeyd olunub ki, Böyükşor gölünün bərpası planına gölə atılan sənaye mənşəli tullantı sularının və kanalizasiya sularının təmizlənməsi daxildir.

Ötən ilin sentyabr ayında Bakıda keçirilən 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində İqtisadiyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin “Modon Holding”i arasında imzalanan “Şəhər daxilində şəhər” (“City within a City”) konsepsiyasının inkişafına dair əməkdaşlıq müqaviləsi”nin icrası ilə Böyükşor gölünün və ona bitişik ərazilərin inkişafında yeni bir səhifə açılacaq. 5 milyard dolları dək investisiya yatırımını nəzərdə tutan konsepsiya Böyükşor gölü ətrafında sağlamlıq, ticarət, təhsil və mehmanxana obyektlərini əhatə edən müasir sahilyanı zonanın yaradılmasını nəzərdə tutur.

***Mübariz ABDULLAYEV***




# Pensiyalar nə qədər artacaq?

## 2026-cı ildə orta aylıq pensiyanın 580 manata çatacağı gözlənilir

Məlum olduğu kimi, 2026-cı ilin yanvar ayı üzrə pensiyaların maliyyələşdirilməsi ölkə üzrə yekunlaşıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondunun məlumatına görə, yanvarın 13-də Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu və Naxçıvan Muxtar Respublikası üzrə yanvar ayının pensiyaları, yanvarın 22-də digər bölgələrdə yaşayan pensiyaçıların və güzəştli şərtlərlə pensiya təyin edilmiş şəxslərin yanvar ayı üzrə pensiyaları, yanvarın 27-də isə yanvar ayının müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları ödənilib. Bütün növ pensiya və təqaüdlərin ödənişləri tam başa çatdırılıb. Ancaq yanvar ayında pensiyalar əvvəlki həcmdə, yəni artımlar olmadan ödənilib. Pensiyaçıları maraqlandıran sual isə artımla bağlıdır. Onlar artımların nə vaxt və hansı həcmdə olacağı barədə qərarı gözləyirlər.

**Artımlar nə vaxt ödəniləcək?**

“Əmək pensiyaları” haqqında qanuna əsasən, əmək pensiyalarının indeksləşdirilərək artırılması hər il yanvar ayına şamil olunsa da, proses növbəti ayda, yəni fevralda təmin edilir. Bunun səbəbi indeksasiya ilə bağlı yekun hüquqi məsələnin hələ tam yekunlaşmamasıdır. Belə ki, mövcud qanunvericiliyə əsasən, pensiyalar hər il yanvar ayında əvvəlki ildəki orta aylıq əmək haqqında qeydə alınan artım faizinə uyğun olaraq indeksasiya olunaraq artırılır. Hələlik bu rəqəm məlum deyil, 2025-ci ilin 11 ayının yekunları açıqlanıb və həmin müddətdə ölkə üzrə orta aylıq əmək haqqı 9,3 faiz artıb. İllik yekun rəqəm isə yaxın bir neçə gündə elan ediləcək. Həmin göstəricinin təxminən 9-10 faiz arasında olacağı gözlənilir. Bu isə o deməkdir ki, pensiyaların indeksasiyası həmin rəqəm üzrə artırılacaq. Məsələn, 2025-ci ilin dekabr ayında pensiyası 450 manat olan şəxsin indeksasiya nəticəsində pensiya məbləği təxminən 45 manat artmış olacaq.

Bütün bunalara rəğmən, rəsmi statistikanı gözləmək lazımdır və fevral ayının ilk günlərində statistika məlum olduqdan sonra indeksasiya əmsalları hesablanacaq. Pensiya artımları da fevraldan hesablanaraq ödəniləcək. Bütün əmək pensiyaçıları indeksasiya yekunlaşdıqdan sonra həm fevral, həm də yanvar ayı üzrə artımları alacaqlar.

**Bütün növ əmək pensiyaları indeksasiya olunacaq**

İndeksasiya bütün növ əmək pensiyalarına şamil olunacaq. Belə ki, “Əmək pensiyaları haqqında” qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq. Eləcə də, son bir ildə əmək və pensiya qanunvericiliyinə edilmiş dəyişikliklər sayəsində əmək pensiyası hüququ əldə edənlərin də təqaüdləri artırılacaq. “Əmək pensiyaları haqqında” qanuna (Maddə 9. Güzəştli şərtlərlə əmək pensiyası hüququ olan digər şəxslər) edilmiş dəyişikliklərdən sonra incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan şəxslərin pensiya yaşı həddinin 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ alması, eləcə də hərbi qulluqçuların hərbi xidmət dövrü üzrə müddətə görə, güzəştli pensiya hüququ qazanması sayəsində son bir ildə xüsusi şərtlərlə pensiya alanların da sayında əhəmiyyətli artımlara səbəb olub. Həmçinin 2023-cü ilin yanvar ayında ötən ilin eyni dövrü ilə müqayisədə yaşa və əlilliyə görə müavinət alanların, ailə başçısını itirməyə və digər müavinət növləri ilə əhatə edilənlərin də sayında artım qeydə alınıb.

**Əmək pensiyaları üçün 8 milyard manata yaxın vəsait nəzərdə tutulub**

Hökumətin ssenarilərinə əsasən, ümumilikdə, 2026-cı ildə Azərbaycanda pensiyalar orta hesabla 579,2 manat səviyyəsində proqnozlaşdırılır. Bu, 2025-ci ilin gözlənilən 537 manat orta pensiyasından təxminən 7,9 faiz çoxdur. “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinə əsasən, büdcədə əmək pensiyalarının ödənişinə ayrılan vəsait 7 milyard 992,88 milyon manat səviyyəsində nəzərdə tutulub ki, bu da 2025-ci ilin təsdiqlənmiş proqnozundan 10,85 faiz və ya 782,35 milyon manat çoxdur.

Onu da xatırladaq ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) yığımlarında da artım nəzərə çarpmaqdadır. Ötən il fondun gəlirləri proqnozla müqayisədə 6 faiz və ya 471 milyon manat çox olmaqla 8 milyard 89 milyon manat təşkil edib. 2025-ci ildə DSMF-nin xərcləri 7,5 milyard manat təşkil edib ki, bu da əvvəlki ilə nisbətən 9 faiz və ya 629 milyon manat çoxdur.

2026-cı ildə isə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi gəlir və xərclər üzrə balanslaşdırılmış şəkildə 8 milyard 483 milyon 70 min manat məbləğində təsdiqlənib. Bu isə ötənilki artan gəlirlərlə müqayisədə təxminən 400 milyon manat vəsait deməkdir. Bu dinamika isə pensiya və təqaüdlərin artımı üçün dayanıqlı mənbə deməkdir.



**Pensiya kapitalı inflyasiyaya uyğun artacaq**

“Əmək pensiyaları” haqqında qanuna əsasən, yalnız əmək pensiyaları deyil, həmçinin vətəndaşların pensiya kapitalı da indeksləşdirilərək hər il artırılır. Həmin qanunun 29.1-1 maddəsində qeyd olunur ki, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir.

Yəni pensiya kapitalları 2025-ci ildəki illik inflyasiya səviyyəsinə uyğun olaraq artırılır. Dövlət Statistika Komitəsinin son məlumatına görə, 2025-ci ildə illik inflyasiya səviyyəsi 5,6 faiz olub. Bu o deməkdir, vətəndaşların 1 yanvar 2026-cı il tarixinə olan pensiya kapitalları 5.6 faiz artırılacaq. Əgər vətəndaşın 40 min manat pensiya kapitalı varsa, onun yığımına 2 min 240 manat əlavə olunacaq. Nəticədə, həmin vətəndaşımızın pensiya kapitalı 42 min 240 manat olacaq.

Qeyd edək ki, pensiya kapitalının indeksləşdirilməsi yığılan pulların inflyasiyadan qorumaq məqsədi daşıyır. Məqsəd həmin vəsaitlərə qiymət artımlarının təsirlərini minimumlaşdırmaqdadır.

Bir məqamı da xüsusi olaraq nəzərə almaq lazımdır ki, Azərbaycanda artıq inflyasiya birrəqəmli həddədir, bu isə orta aylıq pensiya məbləğinin və digər sosial artımların artım tempinin inflyasiya rəqəmini üstələməsinə səbəb olacaq. Yəni artımlar nominal dəyər baxımından alıcılıq qabiliyyətinin yaxşılaşmasına imkan verəcək.

***E.CƏFƏRLİ***

# Sabiq dövlət müşaviri Ramiz Mehdiyevi ifşa edir

## “Boz kardinal”ın “kardinallıq” “azarı”... Yaxud Siz kimsiniz, R. Mehdiyev?



Hidayət

Bu sətirlər çoxdan yazılmalıydı, illər öncədən. Lakin o vaxtlar yüksək siyasi və diplomatik vəzifələr tutduğumdan bu yazı barədə dövlət başçımıza məruzə etmədən qələmə almağı etik baxımdan düzgün saymırdım. Eyni zamanda, xarici və daxili siyasətin qlobal məsələləri ilə, gecə və gündüz işğalçıların ana torpaqlarımızdan qovulması kimi ölkəyüklü problemlərlə məşğul olan rəhbərimizin belə məsələlər üçün vaxtını almağa qıymırdım. Şükür, torpaqlarımız düşmən tapdağından azad olundu, rəhmətlik Leonid İlyaoğlu yarım əsr bundan qabaq demişkən, “Azərbaycan iri addımlarla addımladı”...

Yenə yazmağa tələsmədim, düşündüm - vaxt keçər, bu haqsızlıq, narahatlıq öz “aktuallığını” itirər. Amma itirmədi, yalnız ona görə yox - belə qərəzli düşmən olunmağı nə görmüşdüm, nə də kitablarda oxumuşdum. Lap başlıcası ona görə ki, o illərdə ona yarınmaq üçün dəridən-qabıqdan çıxanların, el dilində istehzayla söyləndiyi kimi “bir Ramiz Ənvəroviç” deyib beşi ağzından tökülənlərin, sözünün mübtədası da, xəbəri də “Ramiz müəllim” olanların çoxu hələ də əvvəlki qoltuqlu stullarında əyləşmiş mənsəb sahibləridir. Digər məqam da çox narahatedicidir. Bizim günlərdə və sonra vəzifələrə təyin olunanlardan elə düşünənlər tapılar: Mehdiyev 60 il məsul, yüksək vəzifələrdə belə işlədi, ona nə etdilər ki? Və belə düşünənlər indinin özündə də “tapılır”, özü də təəssüf ki, az deyillər.

Ancaq mənim bu yazımın ünvanı yalnız bu günə deyil, həm də (başlıca ünvanı!) sabahadır, gələcəyədir! “Boz kardinalların”, “kardinallıq” azarı...

Şair demişkən: “İnsanlar, ayıq olun!”. (Yulius Fuçik).

7 may, 2025.



Dediyinə görə, hər şey ondan başladı - artıq bizə yaxın olmayan 1990-cı ildən (bəri başdan deyim: yalnız ondan yox! - sonra açıqlayacağam). “Gənclik” nəşriyyatının baş redaktoruydum, Mərkəzi Komitənin, Dövlət Nəşriyyat Komitəsinin xəbəri olmadan “Didərginlər - 1918-20, 1948-52, 1988-89” kitabını tematik plandankənar nəşrə hazırlayırdım. O illərdə kitab nəşr edənlər yaxşı xatırlayırlar: tematik plandankənar nəşr yalnız Mərkəzi Komitənin tövsiyəsi və Dövlət Nəşriyyat Komitəsinin kollegiyasının qərarı ilə baş tuta bilərdi - o da o illərdə irihəcmli “Didərginlər”... toplusu ola! Nəşriyyatların tematik mövzu planları adətən 2 il öncə hazırlanır, baxılmaq və təsdiq üçün cavab Sov. İKP MK-yacan gedib çıxırdı. “Didərginlər”...i isə o vaxtlar bu uzun yollarda kimsə dəstəkləməzdi. Ona görə kitabın çapının yeganə yolunun - “partizanlığın” alternativi yox idi. Kitabın nəşri başa çatan kimi “həbs” olundu, mətbəədən çıxmasına qadağa qoyuldu. Mərkəzi Komitənin katibi Fazil Muradəliyevlə görüşdən sonra (Allah ona rəhmət eləsin) məsələni yoluna qoya bildim. 500 səhifəlik kitab görünməmiş tirajla (80 min!) nəşr olunduğu kimi, görünməmiş də maraq doğurdu, bir həftə içində kitab əllərdə gəzirdi, Azərbaycan ondan danışırdı. Mən də, “Gənclik” nəşriyyatının fədakar kollektivi də məmnunluq əhval-ruhiyyəsində ikən Mehdiyevin keçmiş köməkçisi İsmayıl Vəliyev (Prezident İlham Əliyevin Ensiklopediyanın nəşri problemlərinə həsr olunmuş toplantıdan və işdən haqlı olaraq qovduğu həmin İsmayıl Vəliyevdir!) telefonla aradı:

- Ramiz müəllim deyir ki, mənim həmişə Hidayətə yaxşı münasibətim olub. “Didərginlər...”də oxuduqlarımdan çox narahat olmuşam.

- Orda nə var ki? - təəccüblə soruşdum.

- Aslan Kəmərlinin yazısında, 332-333-cü səhifələr... Ramiz müəllim deyir - o, Kəmərlidə olmayıb.

Kitabı açıb baxdım, həqiqətən belə idi. Aslan Kəmərlinin “Qılınckənd həsrəti”ndən:

“...Elə həmin hadisələrdən bir neçə gün sonra Azərbaycan KP MK-nın katibləri (o katiblərdən biri dünyasını çoxdan dəyişdiyi üçün adını çəkmirəm - H.) və Ramiz Mehdiyev kəndə gəlirlər. Gözləmək olardı ki, respublikanın kənd təsərrüfatına və ideologiyasına rəhbərlik edən katiblər camaatı yığacaq, məsələnin mahiyyətini başa salacaq, sərhəd bölgəsindən 70 ilə yaxın bir vaxt keçəndən sonra yenidən bu sərhəd bölgüsünün səbəbini aydınlaşdıracaq, dedi-qodulara, müxtəlif şayiələrə son qoyacaqlar. Bir sözlə, xalqla, taleyini torpağa bağlayan, onu göz bəbəyi kimi sevən kəndin əhalisi ilə açıq söhbət, qarşılıqlı ünsiyyət lazım idi. Belə olmadı, hər iki katib əllərini stola döyüb qışqırdı, ağsaqqalları, ağbirçəkləri təhqir etdilər. Hədələdilər...

Kitabın ideya müəllifi və tərtib edəni də mən idim. Materialların çox cüzi bir hissəsi Aslanın yazısı da o sırada mətbuatda dərc olunmuşdu. Əlyazması çapa hazırlananda nəşriyyat redaktoruna tapşırmışdım: “Vaxtım çatmır - mətbuatda dərc edilmiş yazıları oxumayacağam, diqqətli ol”. İsmayılla telefon söhbəti bitən kimi nəşriyyat redaktorunu çağırıb sərt danladım.

Elə həmin gün həmişə yaradıcılığına və şəxsiyyətinə hörmət etdiyim Aslanı da dəvət edib onunla çox sərt danışdım. Ancaq Aslan qətiyyətlə bildirirdi ki, Mehdiyev həqiqətən o biri katiblə Kəmərlidə olub və camaata hədə-qorxu gəliblər. Sonralar nəşriyyat redaktoru Vəli Həbiboğlu da əminliklə belə deyirdi, bəlkə də o kəmərlilərlə əlaqə saxlayıb məsələni yerli-yataqlı öyrənmişdi. Mən isə onlar deyənə inanmırdım. Düşünürdüm: Mərkəzi Komitənin katibi vəzifəsinəcən gedib çıxmış adam necə ola bilər desin ki, olduğu yerdə olmamışam?

R.Mehdiyevlə mən heç vaxt görüşməmişdim, telefonla da danışmamışdıq. Amma ona normal münasibətim vardı - sanırdım: Heydər Əliyevə sədaqətlidir, Ə.Vəzirov zamanında MK-dan uzaqlaşdırılmasının əsas səbəbi onun kadrı olması və doğulduğu məkanla bağlıdır. Axı hamıya gün kimi aydındır ki, Vəzirov Qərbi Azərbaycandan (içi Naxçıvan qarışıq) olanlara qarşı müharibə elan etmişdi. Onu da deməliyəm ki, Mehdiyev MK katibi kimi ideologiyaya kuratorluq edəndə yaradıcı ziyalıların çoxu ondan narazı idilər. Görkəmli yazıçılarla, mədəniyyət xadimləri ilə onun üstündə fikir ayrılığımızı, hətta mübahisələrimiz də xatırlayıram.

Elə ertəsi gün onunla görüşməyi özümə borc bildim. Zəng çaldım, vaxtlaşdıq, səhər-səhər getdim, deyəsən işə təzə gəlirdi, akademiyanın qabağında iki-üç nəfərlə söhbət edirdi. Narazılıq ifadələri də yadımdadır: “Mərkəzi Komitənin katibini gör gətirib hara salıblar” - təəccübləndim - Mərkəzi Komitənin katibi olmaqla öyünməyin, nostalji hisslərə qapılmağın vaxtı çoxdan keçmişdi. Ancaq düşündüm: “Partokratiya düşüncəsindəndir, keçib gedər...”.

Akademiyaya daxil olduq, 12-15 kvadratmetrlik iş otağına qalxdıq, deyəsən xadimə otağı yığışdırmamışdı. 4-5 stulun hərəsi bir tərəfə atılmışdı...Öncə “Didərginlər...”də onun haqqında olan sətirlərə münasibət bildirdim: “Müəllifi də, nəşriyyat redaktorunu da ciddi qınadım, kəskin tənqid etdim. İndi kitabın rus dilinə tərcüməsi nəşrə hazırlanır, o sətirlər orda olmayacaq! “Heç nə demədi, elə bil heç belə şey olmamışdı.

Heç nə demədi, məsələ bununla bitdi! Sonra o vaxtların siyasi gedişlərindən danışdım, üç dəfə sözümü Ulu Öndərimizin təqib olunmasından, mətbuatda haqqında qərəzli yalanlar, böhtanlar dərc olunmasının üstünə gətirdim. Heç bir reaksiya vermədi, sanki heç eşitmədi. Söhbətin yönünü açıq-aşkar dəyişdi. Nə üçün? Etibar etmirdi? Yox! O vaxt mən mətbuatda bu iyrənc kampaniyaya qarşı nifrətimi açıq-aşkar bildirirdim - Vəzirov komandası tərəfindən “xüsusi nəzarətə” götürülmüşdüm. Bunu hamı bilirdi.

O vaxtlar, sonralar A.Mütəllibovun hakimiyyəti aylarında doğmalarım, məni qəlbən istəyən dostlarım ciddi narahatlıq keçirdilər, “həyatın açıq-aşkar təhlükədədir!” deyənlər də vardı. Xüsusilə Əjdər Xanbabayev qətlə yetiriləndən sonra...

“Didərginlər...”dəki sətirlər üzərində çox dayandım? Səbəbi var. Bir az qabağa gedib deyim. Orda -burda da çox deyirdi o sətirlər barədə. Sonralar dörd-beş dəfə də mənə xatırlatdı. Hər dəfə ona deyəndə ki, kitabın ruscasında o sətirləri çıxardım, ilk dəfə eşidirmiş kimi - “hə?” məmnunluqla soruşurdu. Yaddaşı zəifləmişdi... Lap gözlənilməzi - məni heyrətləndirən, hədsiz əsəbiləşdirən deyimi isə doxsanıncı illərin sonlarında oldu. Yenə sözü “Didərginlər...”dəki o sətirlərin üstünə gətirdi:

- Mən orda elə söz deməmişdim - dedi.

- Siz o vaxt orda olubsunuz? - təəccüblə soruşdum.

- Olmuşam, amma o sözləri deməmişəm.

- Çıxış edibsiniz! Nə deyibsiniz? Deyibsiniz Qızılkəndi ermənilərə verməyin? On ildir deyirsiniz - orda olmayıbsınız. Mən də... Aslanı da ciddi tənqid etdim. İndi o həyatda yoxdur.

- Ölməli adam idi - çox soyuqqanlılıqla bildirdi.

- O “Kommunist” qəzetinin əməkdaşı, tanınmış jurnalist Valeh Musayevlə Kəmərlini, Qızılkəndi, ətraf kəndləri qorumağa getmişdi!!! Öz avtomobillərinin qəzasında ikisi də həlak oldu. İndi mən onların hər ikisinin ruhlarından dönə-dönə üzr istəyirəm - deyib, daha kəskin ifadələr işlətməmək üçün dərhal otaqdan ayağa qalxıb çıxdım.

Bu “Didərginlər...”dəki sətirlərlə bağlı son söhbətimiz oldu. Amma o vaxtacan çox şeylər baş vermişdi...

Əvvəla, 1992-ci ilin avqustunda Prezident Aparatına yüksək vəzifəyə təyin olunandan azca sonra köməkçisi İsmayıl yenə mənə müraciət etdi, yenə həmin sözlər:

- Ramiz müəllim deyir ki, mən həmişə Hidayətə yaxşı olmuşam, özüm də milli məsələlər üzrə mütəxəssisəm, niyə məni unudur...

Mənim fikrim hələ onun haqqında tam dəyişməmişdi - hesab edirdim ki, onu nahaq yerə yüksək vəzifədən uzaqlaşdırıblar. Onun barəsində Əbülfəz Elçibəylə də danışdım, Pənah Hüseynovla da. (Pənah bəy o vaxtlar Dövlət Katibiydi və geniş səlahiyyətləri vardı). İkisinin də cavabı eyni oldu: “Siz o illərin çoxunu İrəvanda yaşayıbsınız, onları tanımırsınız”.

Sonra Mehdiyevə özüm zəng çaldım, bu sözləri yox, sadəcə dedim ki, səbrli olsun. O ki qaldı onun mənə guya yaxşı münasibətdə olmasına - yazının əvvəlində dediyim kimi “Didərginlər...”dəki sətirlərəcən biz nə görüşmüşdük, nə də telefonla danışmışdıq.

1984-cü ilin əvvəlində mən İrəvandan Bakıya köçməyə hazırlaşanda iş məsələmin həlli Mərkəzi Komitənin təbliğat və təşviqat şöbəsinin müdiri Əfrand Daşdəmirovdan yuxarı keçməmişdi. Hətta Əfrand Daşdəmirov öz müavini Rafiq Zeynalova demişdi: “Hidayəti bizə götürə bilərdik. Amma yaşı keçir”. (Onda mən... 39 yaşındaydım). Ancaq iş məsələmin həllində Daşdəmirovun müavini Rafiq Zeynalovun (Allah rəhmət eləsin), sektor müdiri Vahid Əzizin xidmətləri, əzmi, qətiyyəti unudulmazdır!

Mən “Gənclik” nəşriyyatında işə başlayandan xeyli sonra köməkçi 2 dəfə məndən anket aldı - birinci dəfə Müəllif Hüquqları Agentliyinə rəis, ikinci dəfə Kinostudiyaya direktor təyin olunmağım üçün. Tanınmış jurnalist Yusif İsmayılov mənə dedi: “Sən burda təzəsən, bunların “gedişlərini” hələ bilmirsən. Tanınmış, vəzifəyə uyğun adamdan anket alırlar, sonra özləri istədiklərini sakitcə həmin vəzifəyə təyin edirlər”. Müəllif Hüquqları Agentliyinə, ya Müəllif Hüquqlarına rəhbər təyin olunmağın kimi təəccübləndirə bilər ki? Yazıçı uzun illər dövlət teatrının direktoru, naşir, baş redaktor... Beləcə, diqqəti yayındırıb sonra özləri istədiklərini sakitcə gətirib həmin vəzifəyə təyin edirlər. Mehdiyevin “xidmətləri” bütöv olsun deyə bu məqamı da deməliyəm.

Rəhmətlik Yusifin dedikləri düz çıxdı!

Xalq Cəbhəsi hakimiyyətdə iflasa uğradı, getdi... Ulu Öndərimiz Ali Sovetin Rəyasət Heyətinin sədri seçildi, Prezident səlahiyyətlərini icra etməyə başladı.

Bir neçə gün sonra Mehdiyev özü zəng çaldı, görüşmək istədiyini bildirdi, dəvət elədim, gəldi. O söhbətimizdə də köməkçisini xatırladı. Mənim köməkçim otağa daxil olub bir vacib sənədi təqdim edərək otaqdan çıxan kimi başladı onu tərifləməyə... Bu həmin köməkçidir ki, Heydər Əlirza oğlu hakimiyyətə qayıdan kimi rəhbərlik etdiyi binada - Milli Ensiklopediyada qardaş Türkiyənin bir-iki əməkdaşına Ulu Öndərə qarşı aksiyalar təşkil etməyi planlaşdırmaq üçün toplaşmağa şərait yaratmışdı. Mən çox təəccübləndim, dözməyib ona zəng çaldım “İsmayıl, axı sən siyasətlə məşğul olmursan, necə oldu ki, birdən-birə elə anti-Azərbaycan aksiyasının hazırlığına icazə verdin? Özü də Milli Ensiklopediyanın binasında?”. Onun bu hərəkəti ictimaiyyət arasında çox mənfi əks-səda verdi. Mehdiyev isə... ondan bir formal izahat alıb məsələni bağladı. Sevimli, “əbədi” köməkçi isə öz xisləti ilə, öz ampluasındaydı. Amma Prezident İlham Əliyev onu saxtakarlığına, Ulu Öndərin miqyasasığmaz xidmətlərinə kölgə salmaq cəhdlərinə, məqsədli təhriflərinə görə yüksək səviyyəli toplantıdan qovanda daha heç nə kömək edə bilməzdi!

Bu hadisələr İsmayılın təxribatlarından öncə olmuşdu. Ancaq bir sual o vaxtlar da məni çox düşündürürdü:

“Doğurdanmı Mehdiyev İsmayılı tanımayıb? Əlbəttə, elə birinci hadisədən sonra mən İsmayılla bütün əlaqələri kəsdim.

Mehdiyev Ulu Öndərimizin dönüşündən il yarım sonra Prezident Aparatının Ümumi Şöbəsinin müdiri təyin olundu. Onda münasibətimiz isti deyildi, ancaq vəzifəsi böyüyəndən - İcra Aparatının rəhbəri olandan sonra mənə qarşı hədsiz qərəzi yuxuma da gəlməzdi. İlk öncə ondan başladı - Xalq Cəbhəsi hakimiyyətinin süqutundan sonra xidmətdə qalan vakansiya yerlərinə yeni əməkdaşlar təyin olunmasının ciddi cəhdlə qarşısını almaq. Bununla belə xidmət gecə yarısınadək işləyirdi (ertəsi günü səhər saat 9-da işdə olmaqla!) və fəaliyyətində boşluğa yer qalmazdı. Elə gecələr olurdu - saat 2-yə, 3-dək işləyirdik (kabinetdə gecələdiyim günlər də çox olurdu...). Yorulmaq bilmirdik, çünki vəziyyət belə tələb edirdi! Moskvanın, İrəvanın “xeyir-duası”, təşkilatçılığı, maliyyəsi hesabına milli münasibətlərdə gərginlik yaradaraq ölkəmizi 7 yerə parçalamaq planlarını birdəfəlik zibil qabına ata bilmək məcburiyyətindəyik. Dini aləmdə də radikallıq, təriqət qarşıdurmaları baş alıb gedirdi, xaricdə yaşayan soydaşlarımızın bir araya gəlməsi, təşkilatlanması azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşmələri problemləri düz gözlərimizin içinə baxırdı. Hələ qaçqınlar, onların hər gün çıxan onlarla yeni problemləri, müxtəlif qruplaşmaların xarici ölkələrə xidmət kampaniyaları... Bəs nə etməli və nə edirdik? Bu saydığım və saymadığım problemlərin hər biri ayrılıqda geniş mövzudur, onları açmıram.

Ancaq xalqımız və dövlətimiz üçün son dərəcə təhlükəli olan bu problemlərin həlli ilə məqsədyönlü, ardıcıl, inadla məşğul olmağın qabağını kəsməyə cəhd eləməyin adı nədir? Ulu Öndərimizin ruhu şad olsun, Tanrı möhtərəm Prezidentimizə uzun ömür, yeni möhtəşəm uğurlar bəxş etsin - məhz onların müdrik, əvəzsiz siyasəti və milli siyasət məsələləri üzrə Dövlət Müşaviri xidmətinin peşəkar icraçılıq səyləri nəticəsində o qaragüruhlardan sağ-salamat çıxdıq və yalnız qonşulara deyil, Müstəqil Dövlətlər Birliyinə daxil olan bütün ölkələrə yaxşı nümunə, örnək olduq. Sonra bu əvəzsiz Azərbaycan həqiqətləri dünyaya yayılmağa başladı. Onun qərəzi o həddə çatmışdı ki, xidmətin adını da qısqanırdı. Yeni struktura Azərbaycan Respublikasının Azsaylı Xalqlar və Dini Qurumlar üzrə Dövlət Müşaviri xidməti yazdırmışdı. Soruşdum: “Nə üçün?”. Cavabı: “Prezident deyir ki, milli siyasətlə o məşğul olur”. Dedim: “Bu Prezidentin sözü ola bilməz, çünki ölkədə bütün ciddi işlərlə o məşğul olur. İcra Aparatıyla da! Sizin sözünüzdür! Bəs, “azsaylı xalq” nə deməkdir? Azərbaycanda yaşayan ruslar, beloruslar, yəhudilər, ukraynalılar, gürcülər, kürdlər, avarlar, ləzgilər, talışlar... azsaylı xalqlardır? Azsaylı xalq buduğlardır, xınalıqlardır, lahıclardır... Ona görə də “milli azlıq” ifadəsi onların hamısını ehtiva edir. Özünü milli məsələlər üzrə mütəxəssis adlandıran, akademik olmağa hazırlaşan elmlər doktoru “milli azlıqla” “azsaylı xalq”ın fərqini bilmirdi. Prezidentə məruzə etməli oldum, əlbəttə, “milli siyasət” ifadəsi barədə demirdim, çünki o ifadənin xidmətin adında olub-olmaması önəmli deyildi, onsuz da mənim məşğul olduğum sahənin miqyası dəyişmirdi, ancaq “azsaylı xalq” ifadəsi ölkəmizdə də, kənarda da istehza ilə qarşılanacaqdı.

Prezident çox təəccübləndi, dərhal göstəriş verdi, imzalanmış Fərmanda dəyişiklik edildi.

davamı növbəti saylarımızda

# "Qəzza üçün potensial dönüş nöqtəsi"

## BMT Donald Trampın sülh planını belə dəyərləndirir

Fələstində vəziyyət, xüsusilə Qəzza problemi BMT Təhlükəsizlik Şurasının son iclasında əsas müzakirə mövzusu olub. BMT-nin Yaxın Şərq sülh prosesi üzrə xüsusi koordinatorunun müavini Ramiz Ələkbərov iclasda çıxış edərək Qəzzadakı mövcud vəziyyəti "Qəzza üçün potensial dönüş nöqtəsi" kimi xarakterizə edib. R.Ələkbərov Qəzzada münaqişəyə son qoyulması üzrə ABŞ Prezidenti Donald Trampın 20 bənddən ibarət sülh planının ikinci mərhələsinin başlanmasını və Sülh Şurasının yardımçı strukturlarının, o cümlədən Qəzzanın idarə olunması üzrə Milli Komitənin və Qəzza üzrə Ali nümayəndənin ofisinin yaradılmasını sektorda atəşkəs rejiminin möhkəmləndirilməsi üçün mühüm addım adlandırıb. "Qəzza üçün potensial dönüş nöqtəsi yaranıb, daha yaxşı gələcək üçün real imkan mövcuddur. Lakin hələ də qeyri-müəyyənlik çoxdur", - deyə o bildirib.

Xüsusi koordinatorun müavini bildirib ki, bu yaxınlarda Qahirədən qayıdıb və orada Qəzzanın idarə olunması üzrə Milli Komitənin nümayəndələri ilə BMT-nin Təhlükəsizlik Şurasının 2803 saylı qətnaməsinə uyğun olaraq əsas xidmətlərin göstərilməsinə, humanitar yardımın çatdırılmasına və bərpa işlərinə hazırlığa BMT-nin necə dəstək göstərə biləcəyini müzakirə edib. "Birləşmiş Millətlər Təşkilatı komitəni və Qəzzada bərpa üzrə ağır işə başlayan fələstinliləri dəstəkləməyə hazırdır", - deyə Ələkbərov bildirib.



### Qəzzada əhali hələ də yardıma ehtiyac duyur

O, vurğulayıb ki, Qəzzanın demilitarizasiyası və etibarlı təhlükəsizlik mexanizmləri Milli Komitənin fəaliyyəti üçün əsas şərtlərdir. Qəzzadakı humanitar vəziyyəti şərh edən BMT-nin yüksək vəzifəli nümayəndəsi qeyd edib ki, əhalinin demək olar ki, hamısı hələ də yardıma ehtiyac duyur, güclü yağışlar və soyuq hava isə adekvat yaşayış yeri olmayan təxminən 1,5 milyon məcburi köçkünün vəziyyətini daha da ağırlaşdırıb. O, bildirib ki, təhlükəsizlik şəraitinin qeyri-sabitliyi, yüklərin gətirilməsinə qoyulan məhdudiyyətlər, keçid məntəqələrində gecikmələr və marşrutların məhdud sayı səbəbindən humanitar təşkilatlar hələ də Qəzzada zəruri miqyasda fəaliyyət göstərə bilmirlər.

R.Ələkbərov, həmçinin qeyd edib ki, qüvvədə olan atəşkəs rejiminə baxmayaraq, Qəzzada hava zərbələri, atəşlər və silahlı toqquşmalar davam edir. Ərazidə mülki şəxslər həlak olur. "Qəzzada atəşkəs planının ikinci mərhələsinin həyata keçirilməsi həlledici əhəmiyyət daşıyır və güclü kollektiv öhdəlik tələb edir. Bu, fələstinlilər və israillilər üçün daha sabit və təhlükəsiz gələcəyin əsaslarını qoymaq üçün real imkandır", - deyə xüsusi koordinatorun müavini vurğulayıb.



Xatırladaq ki, yanvarın 16-da ABŞ Prezidenti Donald Tramp Qəzza sülh planının ikinci mərhələsinə rəsmi keçidi təsdiqləyib və Fələstinin HƏMAS hərəkatının tam tərksilah edilməsi ilə bağlı razılaşmanın əldə olunacağına əminliyini ifadə edib. Bu barədə Tramp "Truth Social" şəbəkəsində paylaşım edib. O yazıb: "Biz 20 maddəlik Qəzza sülh planının növbəti mərhələsini rəsmi olaraq başladıq". ABŞ Prezidenti yeni yaradılmış Fələstin texnokratik hökumətini dəstəklədiyini vurğulayıb.

Sülh Şurasının yaradılması isə Donald Trampın 20 maddəlik sülh planında öz əksini tapır. Şura yeni texnokratik Fələstin hökumətinin yaradılmasına, HƏMAS-ın tərksilah edilməsinə, beynəlxalq təhlükəsizlik qüvvələrinin yerləşdirilməsinə, əlavə İsrail qoşunlarının çıxarılmasına və Qəzzanın yenidən qurulmasına nəzarət etməlidir. Yanvarın 22-də isə Davosda bir sıra ölkələr

### Sülh Şurası hədəflərinə çatacaqmı?

"Sülh Şurasının Nizamnaməsi" sənədini imzalayıblar. Sülh Şurası dünyada sabitliyin təşviqi, münaqişə zonalarında dayanıqlı sülhün dəstəklənməsi və beynəlxalq təhlükəsizliyin legitimlik, ədalət əsasında bərpası üçün çevik, işlək mexanizm yaratmaq məqsədi daşıyır. ABŞ tərəfindən BMT-nin boşluqlarını doldurmaq üçün təsis edilən bu struktur, konkret sülh modelləri və regional əməkdaşlıq mexanizmlərini reallaşdırmağa xidmət edir.

Sülh Şurasının yaradılmasının əhəmiyyəti aşağıdakı əsas istiqamətlərlə şərtlənir. Beynəlxalq Təhlükəsizliyin Yeni Modeli: Təhlükəsizliyin yalnız güc balansı ilə deyil, legitimlik və ədalət üzərində qurulmasını təmin edir. Dayanıqlı Sülh və Reinteqrasiya: Münaqişədən təsirlənən ərazilərdə infrastrukturun sülh alətinə çevrilməsi və praktiki reinteqrasiya modellərinin tətbiqinə kömək edir.

Funksional Əməkdaşlıq: Çevik qərar qəbul etmə mexanizmi ilə mövcud beynəlxalq təşkilatların çatışmazlıqlarını dolduraraq, regional və qlobal aktorlar arasında səmərəli əməkdaşlığı artırır.

Etibarlı idarəetmə: Böhran bölgələrində hüquqi və etibarlı idarəetmənin bərpasına dəstək verir.

Sülh Şurasının fəaliyyətinin hansı nəticələr verəcəyini isə zaman göstərəcək. Çünki bu təsisata müxtəlif ölkələr tərəfindən münasibət birmənalı deyil. Lakin BMT-nin münaqişələrin həllində effektli olmaması Sülh Şurasına ümidləri artırır.




**N.BAYRAMLI**

# Azərbaycan və Aİ Naxçıvan dəmir yolu layihəsi üzrə əməkdaşlığa başlayır



Azərbaycan və Avropa İttifaqı (Aİ) Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə Naxçıvan dəmir yolu layihəsi üzrə texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına başlamaq barədə razılığa gəliblər.



Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyindən AZƏRTAC-a məlumat verilib.

Belə ki, bu, Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında Qlobal Dəhliz (Global Gateway) təşəbbüsü və bu yaxınlarda təqdim edilmiş Regionlararası Bağlantılar Proqramı çərçivəsində tərəfdaşlığın gücləndirilməsi barədə əldə edilən razılıq əsasında mümkün olub.

Razılığa əsasən, tərəflər nəqliyyat, enerji və ticarət sahələrində davamlı və sabit əlaqələrin qurulması yolu ilə yeni iqtisadi imkanlar yaratmağı, uzunmüddətli ortaq rifahı, əməkdaşlığı və sülhü təşviq etməyi hədəfləyirlər.

Bildirilib ki, Naxçıvan dəmir yolu layihəsi Azərbaycanda və daha geniş regionda mobilliyin və iqtisadi axınların yaxşılaşdırılması baxımından mühüm investisiya hesab olunur. Sözügedən dəmir yolu Avropa ilə Mərkəzi Asiyanı 15 günlük planlaşdırılmış tranzit müddəti çərçivəsində birləşdirməyi hədəfləyən daha geniş Trans-Xəzər Nəqliyyat Dəhlizinin tərkib hissəsidir.

Avropa ilə Asiya arasında marşrutların şaxələndirilmiş, etibarlı və sabit olması ortaq strateji maraqlara xidmət edir. Bu marşrutların yaratdığı faydalar qarşılıqlıdır və həddindən artıq asılılıq risklərini azaldır.

İkitərəfli və regional dəstək proqramları ilə yanaşı, innovativ maliyyə alətlərindən istifadə etməklə həyata keçiriləcək gələcək prioritet layihələr Aİ ilə Azərbaycan arasında iqtisadi əlaqələri daha da gücləndirəcək. Eyni zamanda, bu layihələr Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə, regional bağlantıların möhkəmləndirilməsinə, ölkə daxilində bacarıqların və iş imkanlarının yaradılmasına, eləcə də kənd yerlərinin inklüziv və davamlı inkişafının təşviqinə xidmət edəcək.

# Məmmədbəyli kəndində daha 26 ailəyə evlərinin açarları təqdim olunub








Zəngilan rayonunun Məmmədbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib, Məmmədbəyli kəndi dünən 26 ailə olmaqla, 142 nəfərə qucaq açıb. Kəndə qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurdlarına qovuşublar. Sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, kəndin ümumi sahəsi 51,6 hektardır. Kənddə 188 ev inşa edilib, onlardan 39-u iki, 55-i üç, 55-i dörd və 39-u beşotaqlıdır. Hər bir ev üçün həyətyanı ərazi ayrılıb. Evlərdə Günəş panelləri quraşdırılıb, su, işıq, qaz, yüksəksürətli internet şəbəkəsi ilə təmin olunub. Kənddaxili yollar asfaltlanıb. Kənddə çoxfunksiyalı 2 qeyri-yaşayış binası da inşa olunub. Köçürülən ailələrin, evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

Ailələrə evlərinin açarları təqdim olunub. Ailələr ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

Qeyd edək ki, bu mərhələdə Məmmədbəyli kəndinə 26 ailə olmaqla, 142 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

# 27 ölkənin biri qərarı dəstəkləməsə...

## Aİ ilə Hindistan arasındakı müqaviləyə “qırmızı işıq”



Yanvarın 27-də Avropa Komissiyası Aİ və Hindistanın sərbəst ticarət sazişi bağladığını elan edib. Təxminən 20 illik danışıqlardan sonra əldə olunan razılıq haqda məlumat verən Avropa Komissiyasının sədri Ursula fon der Leyen “biz 2 milyard insan üçün sərbəst ticarət zonası yaratdıq və hər iki tərəf bundan faydalanacaq” - deyə bildirib. AK rəhbəri müqaviləni “bütün zamanların ən böyük ticarət sazişi” adlandırıb.

**Tariflər 150 faizdən aşağı endirilir...**

“The Times of India” qəzetinin məlumatına görə, müqaviləyə əsasən, Hindistan Avropa meyvə şirələrinə, emal olunmuş qidalara, zeytun yağına, marqarinə və digər bitki yağlarına tarifləri ləğv edəcək və geniş bazarını Aİ kənd təsərrüfatı ixracına açacaq. Bundan əlavə, hazırda 150 faizə qədər olan Avropa spirtli içkilərinə tariflər 40 faizə endiriləcək. Nəşrin qeyd etdiyi kimi, ümumilikdə Avropa İttifaqından ixrac edilən malların 96,6 faizi tarif güzəştləri alacaq.

Aİ isə öz növbəsində ətraf mühitin mühafizəsi ilə bağlı əməkdaşlığa sadiq qalır - istixana qazı tullantılarının azaldılmasına və sənaye transformasiyasına dəstək olmaq üçün Hindistana 500 milyon avro ayıracaq.

**ABŞ açıq etiraz edir**

Müqavilənin bağlanması ABŞ tərəfindən birmənalı qarşılanmayıb. CNBC News-a açıqlamasında maliyyə naziri Skott Bessent ABŞ-ın Avropa İttifaqının Hindistanla ticarət müqaviləsi bağlamaq qərarından məyus olduğunu dilə gətirib. “Avropa Rusiya sanksiyası altında olan neftdən Hindistanda emal olunmuş məhsulları alır; öz ticarət danışıqlarını apardığı üçün Hindistan mallarına daha yüksək tariflər tətbiq etmək istəmir. Avropalılar bizə qoşulmaq istəmirdilər. Onlar özləri üçün ən yaxşısını etməlidirlər, amma mən avropalılardan məyus oldum”.

Qeyd edək ki, Bessent bu müqaviləni “Avropalılar özlərinə qarşı müharibəni maliyyələşdirirlər”, - deyə xarakterizə edib.

Qeyd edək ki, 2025-ci ilin avqust ayında Vaşinqton Hindistan mallarına əlavə 25 faizlik tarif tətbiq edib. Bu, Hindistanın birbaşa və ya dolayı yolla Rusiyadan neft idxal etməsi ilə bağlı idi. O dövrdə tarif dərəcəsi 50 faizə çatmışdı.

**Kim nə qazanacaq?**

2007-ci ildən bu yana müzakirəsi aparılan müqavilə rekord müddətdə - təxminən 20 ildə ərsəyə gəlib. Bu müqavilə nəticəsində baş verəcək yeniliklərə nəzər saldıqda:

- Avtomobil sənayesi: Avropa avtomobillərinə tariflər 110 faizdən 10 faizə endirilir. Kvota ildə 250 min avtomobildir. Bu, potensial 1,6 milyard avro gəlir deməkdir.

- Dəzgahlar və elektrik avadanlıqları: Tarif 44 faizdən 0 faizə endirilib. Bu kateqoriyada ixrac artıq 16,3 milyard avro təşkil edir - indi ikiqat arta bilər.

- Aerokosmik: Tarif 44 faizdən 11 faizə endirilib.

- Tibbi avadanlıq və əczaçılıq: Tariflər sıfırdır (əvvəllər müvafiq olaraq 27,5 faiz və 11 faiz olub).

- Alkoqol və qida məhsulları: Premium şərab: tarif 150 faizdən 20 faizə endirilib; pivə: 110 faizdən 50 faizə düşürülüb. Zeytun yağı, şokolad, emal olunmuş qidalar isə 50 faizlik tarifdən 0 faizə düşürülüb.

Mütəxəssislərin proqnozuna görə, Avropa Komissiyası 2032-ci ilə qədər Hindistana ixracın 107,6 faiz artacağını gözləyir. Aİ müəssisələri tariflərdə ildə 4 milyard avroya qədər qənaət edəcək və Avropada 800 min iş yerini dəstəkləyəcək.

Hindistana gəldikdə isə, Yeni Dehli mallarının 99 faizi üçün sadələşdirilmiş giriş tətbiq olunacaq. Xüsusilə, tekstil və geyim məsələsində bu böyük rəqəmlərlə müşayət oluna bilər. Hindistan fabrikləri artıq Aİ-dən əldə etdiyi güzəştlə Banqladeş və Pakistanla rəqabət aparmaq imkanı qazanır. Bundan başqa, zərgərlik və dəniz məhsulları üzrə tarif tamamilə aradan qaldırılır.

**Müqavilə imzalansa da...**






Müqavilə bağlansa da, onun tətbiqi real görünmür. Belə ki, bu qərar kollegial şəkildə bütün dövlətlər tərəfindən dəstəklənməlidir. Başqa sözlə, saziş bütün 27 Aİ üzvü dövlətlərin parlamentləri tərəfindən ratifikasiya olunmalıdır. Prosesi illərlə bloklamaq üçün yalnız bir ölkənin “yox” deməsi və ya prosesi gecikdirməsi kifayətdir. Paralel olaraq, Aİ daxilində də qərarın əleyhinə olan qüvvələr az deyil. Məsələn, Aİ ölkələrində fermer təsərrüfatı ilə məşğul olan milyonlarla insan bu sazişdən açıq narazıdır - onlar Hindistan kənd təsərrüfatı məhsullarının sadələşdirilmiş idxalının nələrə gətirib çıxaracağını artıq bilirlər.

Eyni zamanda, burada vaxt məsələsi də mühüm rol oynayır. Çünki tarif endirimləri dərhal deyil, tədricən tətbiq olunacaq. Bütün dövlətlər bu qərarı “dəstəkləsə” bunun iqtisadi təsiri yalnız 2027-2028-ci illərdə hiss oluna bilər.

**Böyük Britaniya Çin ilə daha da yaxınlaşa bilər...**

Yaranan situasiya Aİ-dən kənar qitə dövlətlərini də hərəkətə gətirib. Belə ki, artıq Böyük Britaniya Çin ilə əlaqələrini daha da gücləndirəcəyini bəyan edib. Böyük Britaniyanın Baş naziri Kir Starmer Çin Xalq Respublikasının Sədri Si Cinpinlə iki ölkə arasında münasibətlərdə yeni səhifə açmaq, ticarətin həcminin artırmaq və təhlükəsizliyi gücləndirmək istədiyini bildirib. Kir Starmer Çinə dördgünlük səfəri çərçivəsində Si Cinpin ilə 80 dəqiqəlik görüş keçirib. Starmer dünyanın ikinci ən böyük iqtisadiyyatı ilə münasibətlərin yaxşılaşdırılmasını prioritet olaraq təyin edib. Baş nazir görüş zamanı Çin liderinə deyib: “Çin qlobal səhnədə vacib aktordur və əməkdaşlıq imkanlarını müəyyən edə biləcəyimiz, eyni zamanda fikir ayrılığımız olduğu sahələrdə mənalı dialoqa imkan verəcəyimiz daha mükəmməl bir münasibət qurmağımız vacibdir”.

***SADİQ***

# Üçlü görüş problemi həll edəcəkmi?

## ABŞ, Danimarka və Qrenlandiya nümayəndələri ada ilə bağlı müzakirələr aparıblar



***N.BAYRAMLI***

Dünyanın ən böyük adası olan Qrenlandiya ilə bağlı problemin həlli üçün müzakirələr davam edir. Bugünlərdə ABŞ, Danimarka və Qrenlandiyadan olan nümayəndələr “ABŞ-ın Arktika təhlükəsizliyi ilə bağlı narahatlıqlarını” müzakirə etmək üçün görüş keçiriblər. Danimarka Xarici İşlər Nazirliyinin məlumatına görə, görüş Danimarka, Qrenlandiya və ABŞ-ın yüksək vəzifəli rəsmiləri arasında baş tutub və “Krallığın qırmızı xətlərinə hörmətlə yanaşılması şəraitində ABŞ-ın Arktika təhlükəsizliyi ilə bağlı narahatlıqlarının” necə həll oluna biləcəyi müzakirə edilib.

ABŞ Dövlət katibi Marko Rubio Senatın Xarici Əlaqələr Komitəsində çıxışı zamanı bildirib ki, ABŞ avropalı tərəfdaşları ilə danışıqlar yolu ilə Qrenlandiya məsələsinə qarşılıqlı məqbul bir həll yolu tapa biləcək: “İnanıram ki, hazırda davam edən prosesin nəticələri bütün tərəfləri məmnun edəcək. Müsbət bir nəticə baş verəcək”. Eyni zamanda, M.Rubio Qrenlandiya ilə bağlı məsələlərin həlli üçün görülməli olan çox işin olduğunu da etiraf edib.

**Danimarka Qrenlandiyanı “qırmızı xətt” hesab edir**

Danimarkanın Baş naziri Mette Frederiksen isə “The New York Times” qəzetinə müsahibəsində bildirib ki, ölkəsi ABŞ ilə Qrenlandiyanın müdafiəsinə dair 1951-ci il müqaviləsinin yenidən nəzərdən keçirilməsini müzakirə etməyə hazırdır, lakin adanın suverenliyinin başqa tərəfə verilməsi ehtimalını istisna edir. Onun sözlərinə görə, suverenliyin ötürülməsi Danimarka və Avropa müttəfiqləri üçün “qırmızı xətt”dir.

Baş nazir, həmçinin Danimarkanın Arktika bölgəsində NATO-nun daimi iştirakının gücləndirilməsində maraqlı olduğunu qeyd edib. Lakin o, NATO-nun Baş katibi Mark Ruttenin Danimarka adından bu mövzuda danışıqlar aparmaq səlahiyyətinin olmadığını vurğulayıb.

Xatırladaq ki, “The Times” qəzeti də öz mənbələrinə istinadən yazmışdı ki, ABŞ Prezidenti Donald Tramp və NATO-nun Baş katibi Mark Rutte tərəfindən razılaşdırılmış Qrenlandiya ilə bağlı çərçivə sazişi adada ittifaq komandanlıq mərkəzindən tutmuş, Rusiya və Çin investisiyalarının qadağan edilməsinə qədər beş əsas komponenti əhatə edir. Qəzet bildirir ki, Tramp və Rutte arasında müzakirə edilən sazişdə 1951-ci ildə Vaşinqton və Kopenhagen tərəfindən imzalanmış Qrenlandiya Müdafiə Müqaviləsinin yenilənəcəyi nəzərdə tutulur.

Qrenlandiyada hərbi infrastruktur, stansiya və komandanlıq qoşunları yaratmaq azadlığına malik olan ABŞ, hərbi personalı üçün tam muxtariyyət və mütləq toxunulmazlıq əldə edəcək.

Qeyd olunur ki, çərçivə müqaviləsindəki digər vacib məqamlar adada NATO komandanlıq mərkəzinin yaradılması, ABŞ-ın Qrenlandiyanın mineral sərvətlərinə çıxış əldə etmək imkanı və adada Rusiya və ya Çin investisiyalarına və ya digər layihələrə mane olacaq eksklüziv rejim müqaviləsidir. Nəhayət, ada satışa çıxarılacağı təqdirdə ABŞ-a Qrenlandiyanı əldə etmək üçün birincilik hüququ təmin etmək təklif olunur. Məqalədə deyilir ki, bunun müqabilində ABŞ Avropa ölkələrinə qarşı tariflərdən imtina etməyə və müqavilənin təfərrüatlarını müzakirə etməyə başlamağa razılaşıb.

**Tramp proseslərin gedişindən razıdır**

Yeri gəlmişkən, NATO-nun Baş katibi bugünlərdə Avropanın ABŞ-ın dəstəyi olmadan özünü müdafiə etmək gücündə olmadığını xəbərdar etmişdi. Onun sözlərinə görə, Avropanın ABŞ-sız özünü qoruya biləcəyini düşünənlər “xəyallarla yaşamağa” davam edə bilərlər. M.Rutte vurğulayıb ki, ABŞ bundan sonra da Avropada güclü hərbi mövcudluğunu saxlayacaq. NATO çərçivəsində Arktika və Qrenlandiyanın təhlükəsizliyi ilə bağlı ayrıca istiqamətlər üzrə iş aparılır. Bununla yanaşı, Qrenlandiya məsələsi və Ukraynadakı müharibə ayrı-ayrılıqda müzakirə olunur. Alyans rəhbərinin fikrincə, Rusiya Prezidenti Vladimir Putin NATO-dan ayrı Avropa müdafiə sistemində maraqlı ola bilər.

Bütün bunların fonunda ABŞ Prezidenti Donald Tramp Qrenlandiya ilə bağlı davam edən proseslərdən məmnun görünür. Belə ki, o, “Sid & Friends” radiosuna müsahibəsində ada ətrafında vəziyyətin “yaxşı inkişaf etdiyini” bildirib. “Qrenlandiya ilə bağlı vəziyyət həqiqətən də yaxşı inkişaf edir”, - deyə Ağ Ev rəhbəri qeyd edib.



**AP tariflərə dair sazişin taleyini gələn həftə müzakirə edəcək**

Onu da qeyd edək ki, ABŞ-ın Qrenlandiya ilə bağlı təhdidləri və Avropanın bir neçə ölkəsinə əlavə tariflər tətbiq etməsi fonunda Avropa İttifaqı (Aİ) ilə Ağ Ev arasında ticarət sazişinin ratifikasiyası ətrafında qeyri-müəyyənlik yaranmaqdadır. Avropa Parlamentinin üzvləri sazişlə bağlı məsələni növbəti həftə müzakirə etməyi planlaşdırırlar. Ticarət komitəsindən bildirilib ki, məsələ bazar ertəsi Avropa Komissiyasının nümayəndələri ilə müzakirə edilib.

Deputatlar ratifikasiya məsələsindən əvvəl Qrenlandiya üzrə “çərçivə sazişi” adlandırılan razılaşma haqqında daha çox məlumat əldə etmək istəyirlər. Çünki bundan sonra ABŞ Prezidenti Donald Tramp öz iddialarından və yeni tariflərin tətbiqindən imtina etməyə razılaşıb. Ticarət komitəsinin sədri Bernd Lanqe jurnalistlərə bildirib ki, ticarət sazişi 4 fevral tarixində parlament qruplarında müzakirə olunacaq: “Bəzi düzgün elementlər var, lakin qeyri-müəyyənliklər də mövcuddur”.

Xatırladaq ki, ötən çərşənbə günü Tramp və NATO-nun Baş katibi Mark Rutte arasında şifahi razılaşdırılmış Qrenlandiya paktı, ABŞ-ın Danimarka, Almaniya və Fransa da daxil olmaqla 8 Avropa ölkəsinə 25 faizə qədər gömrük rüsumları tətbiq etmək təhdidindən imtina etməsini nəzərdə tuturdu. ABŞ-ın öz mövqeyinə yenidən baxmasından sonra milli hökumətlər ratifikasiyanın tezliklə həyata keçirilməsini istəyirlər. Lakin bəzi parlament fraksiyaları buna şübhə edirlər və prosesin dondurulmasını dəstəkləmirlər.

# Merts: Dünyada “sərt küləklər” əsir...




Biz hamımız yeni dünya nizamının yüksək sürətlə formalaşdığını hiss edirik. Bu fikri Almaniya Kansleri Fridrix Merts Bundestaqın iclasında çıxışında deyib. Dünyada münaqişələrin sayının, eləcə də bir çox dövlətlər arasında və bir çox cəmiyyətlərin daxilində zorakılığın artdığını vurğulayan Kansler Almaniyanın bu prosesdə daim təmkinli siyasət yürütdüyünü vurğulayıb.

“Biz artıq bir neçə həftədir getdikcə daha aydın şəkildə görürük ki, böyük güclər dünyanı formalaşmağa başlayır. Dünyada sərt küləklər əsir və biz bunu yaxın gələcəkdə hiss edəcəyik. Lakin biz eyni zamanda daha aydın şəkildə görürük ki, bu dəyişikliklərlə birlikdə ölkəmiz üçün və ilk növbədə Avropa üçün yeni imkanlar da meydana çıxır.

Çünki yenidən formalaşan dünyanın hər yerində yüksələn demokratik dövlətlər, açıq və böyüyən bazarlar mövcuddur. Onlar məhz bizim onlara təklif edə biləcəyimizi - qarşılıqlı hörmət, etimad və etibarlılıq prinsiplərinə əsaslanan tərəfdaşlıqları axtarırlar”, - deyə Fridrix Merts qeyd edib.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Gömrük işçilərinin peşə bayramıdır

*Yeganə BAYRAMOVA*

Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir. Tarix boyu mövcud ölkəmizdə gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərib. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə olub. Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında ilk gömrük postları yaradılmışdı. Azərbaycan hökuməti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqustun 10-da qəbul etmişdi. Azərbaycan parlamentinin 1918-ci il 18 avqust tarixli qanununa əsasən, qaçaqmalçılıqla mübarizə, ölkənin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdı. Burada 992 gömrük işçisi keşik çəkirdi. 1920-ci il aprel işğalı digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatdırılmasına imkan vermədi.




Ulu Öndər Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunmasının və daha da möhkəmləndirilməsinin əsas istiqamətlərindən birini yüksək səviyyəli gömrük xidmətinin yaradılmasında görürdü. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti, gömrük sisteminin formalaşması üçün verdiyi dəyərli tövsiyələri və bu qurumun daha da modernləşməsinə yönələn iqtisadi siyasəti nəticəsində Azərbaycanda dünya standartlarına uyğun gömrük xidməti formalaşıb.

Xatırladaq ki, Ümummilli Lider Heydər Əliyevin 1997-ci ildə imzaladığı sərəncamla hər il yanvarın 30-u gömrük əməkdaşlarının peşə bayramı günü elan edilib. Azərbaycan Respublikasının Gömrük Xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla, ölkənin quru, hava və dəniz yollarında ölkəmizin iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa qarşı qətiyyətlə mübarizə aparır. Prezident İlham Əliyev hər bir sahədə olduğu kimi, gömrük sisteminin də bütün istiqamətlər üzrə daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayır. Bunun nəticəsidir ki, son illər Azərbaycanın gömrük xidməti dinamik inkişaf edir. Yeni, müasir layihələr həyata keçirməklə beynəlxalq standartlara cavab verən nümunəvi təşkilat kimi inamla irəliləyir, fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verərək mütəmadi olaraq islahatlar aparır. Gömrük orqanları qarşısında qoyulan tapşırıqların uğurla icrası məqsədilə Gömrük Xidmətinin Fəaliyyət Proqramı tərtib edilib və orada şəffaflıq, məmnunluq və rəqəmsallaşmanın artırılması, gömrük ödənişlərinin dayanıqlılığının təmin edilməsi, güvənli hüquq-mühafizə tədbirləri DGK-nın strateji hədəfləri olaraq əksini tapıb. Gömrük orqanları tərəfindən icra olunan bütün layihə və yeniliklər "Gömrük İNKİŞAF modeli" konsepsiyası əsasında hazırlanır. Rəqəmsal həllərə, elmi nəzəriyyələrə, qabaqcıl təcrübələrə əsaslanan layihələr rəsmiləşdirmə və sərhədkeçmə proseslərinin asan, sürətli və şəffaf şəkildə həyata keçirilməsinə, gömrük nəzarətinin səmərəliliyinin artırılmasına, vaxt və vəsaitə qənaət olunmasına şərait yaradır. "Gömrük İNKİŞAF modeli" komitənin qısa və orta müddətli perspektiv hədəflərini, prioritet sahələrini və vəzifələrini müəyyən edən strateji planlaşdırma sənədi olan "Gömrük xidmətinin Fəaliyyət Proqramı" üzrə nəzərdə tutulmuş layihələrin konsepsiyasıdır. Müasir dövrdə gömrük xidməti dəyişir. Rəqəmsallaşma, "yaşıl dəhlizlər", elektron bəyannamələr, beynəlxalq əməkdaşlıq - bütün bunlar gömrük işçilərindən daha yüksək peşəkarlıq və çevik düşüncə tələb edir.

# Baş ağrısı: Səbəblər və müalicə üsulu...

*Yeganə BAYRAMOVA*

**Hər baş ağrısına eyni dərman istifadəsi düzgündür?**

Demək olar ki, hər kəsin müəyyən dövrlərdə yaşadığı sağlamlıq problemlərindən biri və bəlkə də ən intensivi baş ağrısıdır. Baş ağrıları stress, yorğunluq, sinir sistemi problemləri və ya daha ciddi tibbi vəziyyətlərdən qaynaqlana bilər. Ona görə də baş ağrılarının növlərini və səbəblərini düzgün müəyyən etmək, effektiv müalicə və profilaktika üçün vacibdir.

**Hər 10 nəfərdən 7-si...**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, bu gün hər 10 nəfərdən 7-si ən geniş yayılmış müxtəlif formalı baş ağrılarından əziyyət çəkir. Adətən baş ağrıları ciddi xəstəlik əlaməti olmur, amma beyində çoxsaylı gərginliklərə yol açır.

**İki əsas kateqoriyaya bölünür**

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən terapevt-həkim Şahvələd Məmmədov bildirib ki, baş ağrıları 2 əsas kateqoriyaya bölünür - birincili və ikincili baş ağrıları: "Birincili baş ağrıları xüsusi bir xəstəlik səbəbi olmadan yaranan baş ağrılarıdır. İkincili baş ağrıları isə başqa bir tibbi vəziyyətin əlaməti olaraq ortaya çıxan baş ağrıları hesab edilir. Birincili baş ağrıları birbaşa beyin və sinir sisteminin funksional dəyişikliklərindən qaynaqlanan ağrılardır, ən çox yayılmış baş ağrısı növüdür. Başı sıxan, sıxıcı, küt ağrı şəklində hiss olunur. Boyun və alın ətrafında sıxılma hissi yaradır. Stres, yorğunluq, susuz qalmaq və yuxusuzluq səbəbindən yaranır.




İkincili baş ağrıları isə daha şiddətli və döyüntülü formada olur. Bu zaman bulantı, qusma və işığa qarşı həssaslıq müşayiət edə bilər. Hormonal dəyişikliklər, stres, müəyyən qidalar və hava dəyişiklikləri isə bu ağrıları daha da kəskinləşdirir".

**Təbii yollarla müalicə**

Terapevt baş ağrılarının azalmasına kömək edən bir sıra təbii vasitələrin mövcud olduğunu qeyd edib: "Ancaq bu ağrı xronikləşibsə və daha fərqli simptomlara yol açarsa bu zaman daha ciddi müalicə və həkim müayinəsi vacibdir.

Soyuq kompress - ən geniş yayılan üsullardan hesab edilir. Ağrıyan nahiyəyə soyuq kompressin tətbiqi ağrının yüngülləşməsinə səbəb ola bilər.

Alma çayı - içindəki antioksidantlar başda olmaq üzrə minerallar və vitaminlər sayəsində bədənə dəstək olur və baş ağrısının azalmasına kömək edir. Çay isti deyil, ılıq ya da soyuq formada istifadə edilsə baş ağrısının azalması daha effektiv ola bilər.

Lavanda yağı - bu yağın içindəki müxtəlif maddə sayəsində ağrıları sakitləşdirmək mövzusunda təbii vasitələrdəndir. Bir kasa qaynamış suyun üzərinə 4-5 damcı qədər lavanda yağı əlavə edib sudan yüksələn buxarı udmaq baş ağrıları üçüb effektivdir.

Banan - bu meyvənin tərkibində potassiyum var. Bu da damarlar üzərində effektli təsir yaradır, onları rahatladır. Qeyd edim ki, bununla zəngin olan kartofu da soyutma formasında bişirərək üzərinə duz əlavə etmədən yemək ağrıları yüngülləşdirə bilər.

Nanə yağı - bu yağ da təbii vasitələrdən hesab edilir. Baş ağrıyan zaman ələ bir neçə damla damladaraq ağrıyan sahəyə çəkərək ovalamaq ağrıların keçməsi üçün təbii və effektiv üsullardan sayılır.



**Bu tərkibli dərmanlar baş ağırısı üçün effektivdir**

Ş.Məmmədovun sözlərinə görə, baş ağrısına qarşı dərmanlar müxtəlif tərkiblərdə olur. Lakin elə tərkibli dərmanlar var ki, onlar ağrıların azalması üçün daha üstün xüsusiyyətlərə malikdir: "Xüsusilə "parasetamol" tərkibli dərmanlar daha təsiredici maddələrdən sayılır. Həmin dərmanlar yüngül və orta dərəcəli baş ağrısı üçün effektivdir. Mədəni çox qıcıqlandırmır, düzgün istifadə olunanda təhlükəsiz sayılır.

Bundan başqa, iltihaba qarşı güclü xüsusiyyətləri olan dərmanlar da şiddətli ağrıları azalmasına kömək edir.

Asetilsalisil turşusundan ibarət olan dərmanlar isə köhnə, amma hələ də effektiv seçimdir. Qan dövranı ilə əlaqəli ağrılar üçün çox təsirlidir, belə ki, qanı duruldur, bəzən başdakı "təzyiq hissini" azaldır.

Baş ağrıları üçün kofeinli kombinasiyalardan ibarət dərmanlar isə yorğunluq və yuxusuzluqdan yaranan baş ağrılarının azalmasına qarşı yaxşı seçimdir".

*İdman*

## "Fənərbağça"nın sabiq hücumçusu "Trabzonspor"da




Türkiyənin "Trabzonspor" komandası yeni oyunçu ilə anlaşıb. AZƏRTAC xəbər verir ki, Qara dəniz təmsilçisi "Konyaspor"dan Umut Nayirin keçidi ilə bağlı razılıq əldə edib.

32 yaşlı futbolçu vaxtilə "Beşiktaş" və "Fənərbağça"nın formalarını geyinib. O, bu mövsüm Konya klubunun heyətində 21 oyunda 8 qol və 4 məhsuldar ötürmə ilə yadda qalıb.

## Heç bir rəqibdən çəkinmirik




Çempionlar Liqasının pley-off mərhələsinə yüksəldiyimiz üçün çox xoşbəxtik. İşimiz çətindir. Çünki bu mərhələdə asan rəqib yoxdur. Yaxşı nəticə üçün çox çalışmaq lazım olacaq. Bu sözləri AZƏRTAC-a açıqlamasında "Qarabağ"ın futbolçusu Emmanuel Addai deyib.

24 yaşlı qanalı yarımmüdafiəçi komandanın növbəti mərhələdəki potensial rəqiblərinin Avropanın ən güclü klublarından hesab olunduğunu söyləyib: "PSJ-nin heyətində ulduz futbolçular var. "Nyukasl" isə çox aqressiv və sürətli oyun tərzi ilə seçilir. Amma biz "Qarabağ"ıq. Mövsüm ərzində göstərdiyimiz mübarizə sübut etdi ki, heç bir rəqibdən çəkinmirik. Meydana çıxıb öz oyunumuzu oynayacağıq".

Qeyd edək ki, əsas mərhələnin sonuncu turunda İngiltərədə "Liverpul"a 0:6 hesablı məğlubiyyətə baxmayaraq, turnir cədvəlini 10 xalla 22-ci pillədə başa vuran "Qarabağ" növbəti raunda vəsiqə qazanıb. Bununla da "köhlən atlar" Çempionlar Liqasında pley-off mərhələsinə yüksələn ilk Azərbaycan klubu olub. "Qarabağ"ın pley-off mərhələsindəki rəqibi bu gün keçiriləcək püşkatma mərasimində bəlli olacaq. Azərbaycan çempionu 1/8 finala gedən yolda PSJ və ya "Nyukasl"la qarşılaşa bilər.

## Elxan Abdullayev: Azərbaycan futbolu adına yeni tarix yazıldı

Bir məğlubiyyət "Qarabağ"ın uğuruna kölgə sala bilməz. Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycanın 19 yaşadək futbolçulardan ibarət milli komandasının baş məşqçisi Elxan Abdullayev Ağdam klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsinin sonuncu - VIII turunda İngiltərənin "Liverpul" komandasına məğlub olduğu oyun barədə danışarkən deyib.



O, Qurban Qurbanovun komandasının Avropadakı nəticəsinə görə qürur duyduğunu bildirib: "Heç kim komandanın "Liverpul"a məğlubiyyətini qabarda bilməz. Nəticəmiz möhtəşəmdir. Bura gəlmək böyük güc tələb edir. Azərbaycan futbolu adına yeni tarix yazıldı. Bütün komandaya təşəkkür edirəm".

Mütəxəssis Ağdam klubunun pley-off mərhələsindəki potensial rəqibləri barədə də danışıb: "PSJ və "Nyukasl" nüfuzlu komandalardır. İnanın ki, bundan sonra alınacaq məğlubiyyət mənə təsir etməyəcək. Çünki "Qarabağ" böyük tarix yazıb və hər kəsi xoşbəxt edib. Bizim üçün gələcək rəqibin də fərqi yoxdur. Mənə görə, Azərbaycan çempionu nəticədən asılı olmayaraq, missiyasını uğurla tamamlayacaq".

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4604**
**Sifariş: 150**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova